Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Ədəbiyyatımızda Yusif *Vəzir Çəmənzəminli qələmi*

**Yusif Vəzir Çəmənzəminlinin 135 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün metodik vəsait**

**Bakı-2022**

**Tərtibçi:** **Aynurə Əliyeva**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Ədəbiyyatımızda Yusif Vəzir Çəmənzəminli qələmi-** Yusif Vəzir Çəmənzəminlinin 135 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. N.Məcidova ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. – 53 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

## *Azərbaycan ziyalıları həmişə xalqın iradəsini ifadə ediblər.*

**Heydər Əliyev,**
*Ümummilli lider*

Tarixən ölkələr və xalqlar üçün ağır olan dönəmdə çıxış yolunu tapmaq missiyası ziyalıların üzərinə düşüb. Bizim xalqın ziyalıları da daim bəşər övladının həmin təcrübəsini zənginləşdirə biləcək konkret addımlar atıblar.

Hər bir millətin mövcudluğu və mənəvi inkişafı onun ziyalılarının nisbətindən asılıdır. Ziyalı mənsub olduğu millətin simasını müəyyənləşdirən şəxsiyyətdir. Tarix göstərir ki, millətin çətin anlarında onun mükəmməl milli təəssübkeşlik duyğularına malik ziyalısı millətə düzgün yol göstərib onun bu çətinlikdən xilas olmasında böyük rol oynayır.

Xalqın içərisindən çıxıb ona xidmət göstərmək istəyən ziyalı üçün fəaliyyət dairəsi məhdud olmur. Əksər halda isə ziyalılar yaratdıqları zəngin mənəvi sərvətlə öz millətlərinin tarix səhnəsindən çıxarılmasının qarşısını alırlar.

Onların bizim üçün qoyub getdikləri mənəvi irs keyfiyyətcə o qədər yüksəkdir ki, bu irsi təkcə mənəvi sahə ilə məhdudlaşdırmaq olmaz. Onların yaradıcılığı həm də xalqımızın varlığının və dövlətçiliyinin atributları səviyyəsindədir.

O xalq, o millət xoşbəxtdir ki, onun həqiqi ziyalıları var, onun taleyi ilə maraqlanan, gələcəyini düşünən, onun

tərəqqisi, inkişafı, yüksəlişi yolunda canını fəda etməyə hazır olan yetirmələri vardır.
İdeyalılıq, əqidəlilik isə ziyalılığın mühüm atributudur. Əqidə, ideya yoxdursa, deməli, ziyalılıq da yoxdur.

Azərbaycanda ziyalıların formalaşması dərin tarixi köklərə malikdir. Qədim və orta əsrlərdə Azərbaycanda fəaliyyət göstərən Zərdüşt, alban və müsəlman məktəbləri sonralar xalqımızın mənəviyyat pasportuna çevrilən görkəmli şəxsiyyətlər – şairlər, sərkərdələr, rəssamlar, heykəltəraşlar, maarifpərvərlər yetişdirdi.
Azərbaycan ziyalıları zaman-zaman öz yaradıcılıqlarında azərbaycançılıq ideyasına müraciət ediblər. Bu sahədə mərhum ədibimiz Yusif Vəzir Çəmənzəminlini xüsusi ilə qeyd etmək vacibdir. Öz idealı uğrunda mübarizə aparan ziyalılar ordusu içərisində Yusif Vəzir Çəmənzəminli istiqlal yazarları Məhəmməd Hadi, Əhməd Cavad, Məhəmməd Biriya kimi tarixi önəm kəsb edib. Yusif Vəzir Çəmənzəminlinin milli idealında azərbaycançılıq – Azərbaycanın taleyi və ideyaları ilə möhkəm bağlıdır. Sənətkarın poeziyasında Vətənin, xalqın ümumiləşmiş obrazı zəngin mənbələrlə, qaynaqlarla müşayiət olunub. Yusif Vəzir Çəmənzəminli azadlıq idealı ilə poeziyasına bəşəri məzmun gətirib. O, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, ədəbiyyatşünas, alim, pedaqoq, ictimai-siyasi xadim, folklor tədqiqatçısı, milli demokratik hərəkatın mücahidi, Azərbaycan ədəbiyyatında görkəmli ədəbi simadır.
Ədəbiyyatımızda özünəməxsus yeri olan hekayə ustası, dramaturq, bir sözlə Azərbaycan ədəbiyyatının öndər yazıçılarından biri olan Yusif Vəzir Çəmənzəminlinin bu il 135 illik yubileyi olur. Bu münasibətlə Respublikanın bütün mədəniyyət müəssisələrində, eyni zamanda, kitabxanalarda yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. Biz də

öz növbəmizdə bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə **“1937- ci ilin qara dastanı”** adlanır və ədibin yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır. II hissədə isə yubiley münasibətilə ilə kitabxanalarda keçiriləcək tədbirlər öz əksini tapır. Bu tədbirlər arasında sərgi mühüm yer tutur. Sərgidə yazıçının kitabları, müxtəlif mətbuat səhifələrində onun haqqında nəşr olunmuş məqalələr və onun fotoları nümayiş olunur. Sərgi başıqları aşağıdakılardan ibarətdir: “Nəsrimizin görkəmli nümayəndəsi”, “Gözəl əsərlər müəllifi”, “ “Bədii nəsrimiz və yazıçı dünyası”, “Gənclərin sevdiyi sənətkar” “Yaradıcılıq zirvəsi”, “Əqidə insanı Yusif Vəzir Çəmənzəminli”, “Həyatı odlar içində keçən ədib”, “Realist sənətkar”, “Dustaq qəbiristanlığının qərib sakini”, Ədəbiyyatımızda ilk tarixi - fəlsəfi roman ustadı”, “Kiçik hekayələrdə böyük sənətkarlıq üslubu”, “Xalqa həsr edilmiş həyat”, “Şərəfsiz bir aqibətin qurbanı” və s.
Sərgi təşkili zamanı aşağıdakı sitatlardan istifadə etmək olar.

*1. Gənc, həyat elə böyük bir qüvvədir ki, mətin qayanı belə yıxar. Gənc olduğumu idrak edən dəqiqələr özümü kainatın hakimi zənn edirəm. İnsan özünün baqi olmadığına inanarmı? Gündə yüz minlərlə ölülər belə görsəm, öləcəyimə qane ola bilmirəm.*

*2. Mən həyatımın sonuna qədər uğursuz olacağına, cocuqluğumun ilk dövründən inanıb, qəlbimdə qəm kitabı daşıdım.*

***Yusif Vəzir Çəmənzəminli***

Vəsaitin sonunda məlumat biblioqrafiya şöbəsi tərəfindən hazırlanmış ədəbiyyat siyahısı da verilmişdir ki, Yusif Vəzir

Çəmənzəminlinin yaradıcılığına müraciət edənlər bu biblioqrafiyadan yararlana bilərlər.

## *Həyatı*

Yusif Vəzir Çəmənzəminli 1887-ci il sentyabr ayının 12-də Azərbaycanın Şuşa şəhərində anadan olmuşdur. Yusif Vəzirin atası Məşədi Mirbaba Mirabdulla oğlu Vəzirov Şuşa bəylərindən biri idi. Onun bəyliyi 1873-cü il aprel ayının 13-də Şuşa qəza idarəsi tərəfindən təsdiq edilmiş və ona bu haqda şəhadətnamə verilmişdir. Yusif Vəzirin daşıdığı Vəzirov soyadı XVIII əsr Qarabağ hökmdarı İbrahimxəlil xanın nüfuzlu vəzirlərindən biri olan Mirzə Əliməmmədağanın tutduğu vəzir vəzifəsinə bağlı olaraq nəsildən-nəsilə keçmişdir. İbrahimxəlil xanın vəziri Mirzə Əliməmmədağa Vəzirov soyadını daşıyan Məşədi Mirbaba (Yusif Vəzirin atası) nəslinin ulu babasıdır.

1797-ci ilin iyun ayında İran hökmdarı Ağaməhəmməd şah Qacar, Şuşanı zəbt etdiyi zaman İbrahimxəlil xan tərəfindən Türkiyə dövlətinə yenicə səfir təyin olunmuş Mirzə Əliməmmədağanı dustaq etdirib qətlə yetirir. Bununla da, Mirzə Əliməmmədağaya səfir olmaq qismət olmur.

Uzun illərdən sonra Türkiyədə səfirlik etmək Mirzə Əliməmmədağa nəslinin nümayəndəsi Y.V.Çəmənzəminliyə nəsib olur. O, 1919-cu ildə yeni yaranmış Azərbaycan Demokratik Cümhuriyyətinin Türkiyədə ilk səfiri olur. Yusif Vəzirin atası Məşədi Mirbaba İran, Orta Asiya və Türkiyənin bir qismini gəzmişdi, fars və türk dillərini mükəmməl bilirdi. O, ədəbiyyat ilə də məşğul olardı və Firdovsi ilə Füzulini çox sevərdi. Eyni zamanda xanəndələrə muğamatdan dərs deyərmiş. Məşədi Mirbaba gənc yaşında var-dövlətini qonaqlıqlarda xanəndə-sazəndələrə, yeyib-içməyə xərcləyib, kasıb düşdükdən sonra Ağdamda attar (dərman və ədviyyat

satan) dükanı açır və orada nüsxəbəndlik (qədim tibb kitabları əsasinda dərman düzəldən həkim) edir.

Yusif Vəzir ilk əvvəl Şuşada "Kar Xəlifə" ləqəbi ilə tanınan Molla Mehdinin məktəbində oxuyur. Molla Mehdinin yanında təhsilin səmərəsiz olduğunu hiss edən Məşədi Mirbaba oğlu Yusifi Ağdama aparır və onun təhsili ilə özü məşğul olur. Ona türk və fars dillərini öyrədir. Yusifin atası onun rusca öyrənməsini də istəyirdi. Ağdamda rus məktəbi olmadığı üçün Yusif Muradbəylidəki rus məktəbinə getməli olur. Yusif bir il bu məktəbdə oxuyandan sonra hazırlaşıb realnı məktəbinə girmək üçün 1896-ci ildə Şuşaya qayıdır və imtahan verib Şuşa realnı məktəbinə daxil olur. O zaman Şuşa realnı məktəbə tədris və təchizat etibarilə Qafqaz orta məktəbləri sırasında birincilərdən sayılırdı.

Şuşa realnı məktəbının yuxarı kurs tələbəsi, Yusifin böyük qardaşı Əbülhəsən nümunəvi tələbə olduğu üçün Yusifin də realnı məktəbdə yaxşı tələbə olmasına çalışırdı. Lakin Əbülhəsən istədiyi kimi ona müvəffəq ola bilmirdi. Çunki Yusifin riyaziyyata o qədər də marağı yox idi. Yusif oxuduğu kitablarda hər şeydən çox rəssamların və heykəltaraşların tərcümeyi-halına diqqət yetirərdi.

Yusif Vəzir hələ kiçik yaşlarında rəsm əsərləri çəkməklə məşğul olurdu. Əvvəlcə təbiət mənzərələri, sonralar isə ictimai-siyasi motivli karikaturalar çəkməyə başlamışdı.Yusifin tələbəlik illərinin sevinci uzun sürmür. Gözlənilmədən onun böyük qardaşı Əbülhəsən xəstələnir və 1904-cü ildə vəfat edir. Yusif Vəzirin 21 yaşlı qardaşı Əbülhəsənin vaxtsız ölümü onu hədsiz dərəcədə sarsıdır. Baş verən bədbəxt hadisə atalari Məşədi Mirbabanın və anaları Seyid Əziz xanımın tez-tez xəstələnmələrinə səbəb olur. Bu hadisə dünyada haqq və ədalət olmasına inanan Yusifdə də

ümidsizlik doğurur və onun uzun müddət dərsləri ilə məşğul ola bilməməsinə səbəb olur.

Bir müddət keçəndən sonra qardaşı Əbülhəsənin yaratdığı zəngin kitabxana Yusifə verilir. Yusif Vəzir kitabxanadakı rus və əcnəbi klassiklərin kitabları ilə yaxından tanış olandan sonra onda rəsm ilə bərabər ədəbiyyata da böyük maraq oyanır. Yusif Vəzir Şuşa realnı məktəbində təhsilini rus dilində aldığı üçün 1904-cü ildə həyatından şikayət tərzində yazılmış "Jaloba" adlı ilk şeirini rusca yazmışdı. Yusif Vəzir rusca yazdığı bir neçə şeirini Şuşa realnı məktəbindəki rus dili müəllimi Klemiyə göstərir. Müəllim şeirləri gözdən keçirib ona Çexovu oxumağı məsləhət görür. Çexovun şirin və duzlu hekayələri Yusif Vəzirin çox xoşuna gəlir. Yusif realnı məktəbdə oxuyan zaman əmisi oğlu və dostu Mirhəsən Vəzirovla birlikdə rus dilində "Fokusnik" adlı, əl ilə yazılmış yumoristik və karikaturalı aylıq jurnal çıxarırdılar. Bu jurnalda verilən yazılar həcmcə kiçik olsa da, məzmunca diqqəti cəlb edirdi. 1905-ci ilin yayında erməni daşnaqlarının təbliğatı nəticəsində Şuşada milli qırğın başlayır. Polis və hökumət əsgərləri bu düsmənçiliyə qarşı laqeyd münasibət bəslədikləri üçün iki xalq biri-birini qırır, evlərini yandırıb, xaraba qoyurdular. Şuşanın təhlükəli vəziyyətindən doğan əsəbilik Yusif Vəzirin atası Məşədi Mirbabanın tez-tez xəstələnməsinə səbəb olur. Yusif Vəzirin atası 1906-ci il fevral ayının 20-də vəfat edir. Onun vəfatından sonra ailə, həyat təcrübəsi olmayan 19 yaşlı Yusifin himayəsində qalır. Atasının vəfatından sonra Yusif ilk əvvəl Ağdamdakı əttar dükanının şeylərini və dükanın özünü satmaq üçün mart ayının birində Ağdama gedir. Bir neçə gün orada qaldıqdan sonra xəstələnib Muradbəylidə yaşayan Telli bibisigilə gedir. İki ay yatalaq xəstəliyindən yatıb, ağır böhranlar keçirir.

Sonra Yusifin bibisi onun sağalacağına olan ümidini itirib Şuşaya göndərir. Xəstəlikdən zəif düşmüş Yusifin üç ay yataqdan qalxa bilməməsi ailəni böyük çətinliklər qarşısına qoyur. Ailə köməksiz qalır. Yusifin anasi Seyid Əziz xanım gecə-gündüz rahatlıq bilmədən onun həyatını xilas etmək üçün əlindən gələni edir. Ailənin ağır vəziyyətində Yusif hələ uşaq ikən Cənubi Azərbaycanın Çəmənzəmin adlı kəndində (bu kənd günümüzdə də mövcuddur və hazırda İranın Şərqi Azərbaycan ostanının Heris şəhristanının Xacə bəxşinin Məvazixan-i Şimali dehistanında yerləşir) aclıq nəticəsində oradan qaçıb, Şuşaya pənah gətirib, Yusifgilin həyətlərində sığınacaq tapmış Həsənxan, Nifti və Fərəc qardaşlarından basqa heç bir qohumları onlara kömək etmir. Yusifin atası Məşədi Mirbabayev yurdları olmayan bu qardaşlara öz həyətində sığınacaq verib himayəsinə almışdı.

Yusif sağaldıqdan sonra anasına deyir ki, əgər mən gələcəkdə adlı-sanlı adam olsam, mütləq Cənubi Azərbaycandan gəlmiş sədaqətli qonşularımızın kəndlərinin adını özümə təxəllüs qəbul edəcəyəm. Yusif Vəzirin "Çəmənzəminli" təxəllüsünü qəbul etməsi onun həmin ailəyə bəslədiyi hörmət və məhəbbətdən irəli gəlir. Şuşada yaranan erməni-müsəlman toqquşmaları nəticəsində azərbaycanlı tələbələr məktəblərini tərk etmək məcburiyyətində qalırlar. Yusif Vəzir də təhsilini davam etdirmək üçün Bakıya gedib realnı məktəbin altıncı sinfinə daxil olur. O, böyük səylə oxumaqla bərabər ictimai işlərlə də məşğul olur. Yusif Vəzir xalqın məişətini, onun adət və ənənələrini, həyat tərzini bilərək 1907-ci ildə "Şahqulunun xeyir işi" adlı hekayəsini yazır. Bu hekayə ilk dəfə 1911-ci ildə "Səda" qəzetində çap olunur.

Şuşadakı milli ədavət Vəzirovlar ailəsini də ata-baba yurdundan didərgin düşməyə məcbur edir. Onlar Aşqabada

köçməli olurlar. 1907-ci ilin yayında Yusif Vəzirov Aşqabada anasına baş çəkməyə getdiyi zaman orada Aşqabad Gimnaziyasının 3-cü sinif şagirdi Berta Maiseyeva ilə tanış olur. Bertanın "Əli və Nino" romanındakı Ninonun prototipi olduğu ehtimal edilə bilər. Əslində, gündəliklərinə əsasən demək olar ki, romandakı tarixi hadisələrin bir çoxu Vəzirovun Bakıda realnı məktəbdə oxuduğu dövrə təsadüf edir.

Yusif Vəzir 1909-cu ildə Bakı realnı məktəbini bitirib, təhsilini davam etdirmək üçün həmin ilin iyul ayında Peterburqa gedib sənədlərini Mülki Mühəndislər institutuna verir. Lakin riyaziyyata qələbə çalmayacağını hiss edib sənədlərini geri alır. Orada qaldığı vaxtdan istifadə edib məşhur "Cənnətin qəbzi" hekayəsini və Qafqazın fəth edilməsinin 50 illiyi münasibətilə Dağıstanın məşhur milli qəhrəmanı olan Şeyx Şamili yada salaraq ona şeir həsr edir. Bir aydan sonra Yusif Vəzir Peterburqdan Aşqabada qayıdır. O, Aşqabadda qaldığı müddətdə latıncanı öyrənməyə başlayır. Sonra isə Daşkəndə gedib altı ay kursda oxuyur və Daşkənd gimnaziyasında imtahan verib universitetə girmək hüququ qazanır.

Yusif Vəzir 1910-cu ildə Kiyevə gedib, Müqəddəs Vladimir adına İmperator Universitetinin hüquq fakültəsinə daxil olur. Yusif Vəzirin Kiyevdəki 5 illik tələbəlik dövründə də o vətənilə heç bir zaman əlaqəni kəsmir. Yusif Vəzir Bakıda nəşr olunan qəzetləri və jurnalları müntəzəm olaraq alır və Azərbaycanda baş verən hadisələrlə yaxından tanış olurdu. Eyni zamanda öz yazılarını da Bakıda çıxan qəzetlərdə çap etdirirdi. Yusif Vəziri düşündürən əsas məsələlərdən biri də Azərbaycan dilində kitabların nəşri və yayılması olmuşdu. O, bu məqsədlə Kiyevin ali məktəblərində təhsil alan azərbaycanlı tələbələrdən ibarət

xüsusi nəşriyyat heyəti təşkil etmişdi. Bu barədə Yusif Vəzir 1911-ci il iyun ayının 3-də "Səda" qəzetində çap etdirdiyi "Kiyevdə heyəti – nəşriyyat təşkili məqaləsində yazırdı… kitabçalar bir ədəbiyyata dair olmayıb, siyasi, tibbi, tarixi, iqtisadi məsələlərdən də bəhs edəcəkdir".

### *Yaradıcılığı*

Yusif Vəzir Çəmənzəminlinin gündəlikləri, məqalələri, hekayə və romanları daxil olmaqla sənədlərinin böyük bir hissəsinin saxlandığı Əlyazmalar İnstitutu. Qayınanası Kiçikxanım Acalova Stalin repressiyası dövründə Çəmənzəminlinin ədəbi əsərlərini qoruyub saxlaya bilmişdir və bu sayədə Çəmənzəminil arxivi hazırda ən zəngin arxivlərdən biri sayılır.

Sovet dövrünə aid lövhədə (kiril əlifbası ilə) yazılıb: Görkəmli Azərbaycan yazıçısı Y.V. Çəmənzəminli (1887–1943) burada yaşamış və yaratmışdır. Onun yaşadığı mənzil Sərdarov küçəsi 20 ünvanında yerləşirdi.

Yusif Vəzirin xalq nağıllarından götürülmüş uşaqlar üçün yazdığı məşhur "Məlik Məmməd" nağılı 1910-cu ildə Kiyevdə yazılmış və 1911-ci ildə kitabça şəklində nəşr olunmuşdur. Kiyevdəki nəşriyyat heyəti Azərbaycanın tarixinin yazılması təşəbbüsünü də irəli sürürdü. Bu barədə Yusif Vəzir 1913-cü il mart ayının 12-də "Sədayi-həqq" qəzetində çap etdirdiyi "Biz kimik?" məqaləsində yazırdı:

…Tarixin millətimizə nə qədər mənfəəti olduğunu nəzərə alıb Kiyev müsəlman studentlərinin nəşriyyat heyəti ərbabi qələmimizdən Azərbaycan tarixini yazmağı rica edir. Tarix müxtəsər və sadəcə Azərbaycan dilində olmalıdır. Onu heyət təb etdirməyi öhdəsinə götürür və bundan əlavə tarix müəllifinə mükafat da verməyi vəd edir.

Yusif Vəzir 1912-ci ildə “Yeddi hekayə”, 1913-cü ildə isə “Həyat səhifələri” adlı kitablarını Kiyevdə çap etdirir. Onların hər nüsxəsinin Qori müəllimlər seminariyasının müəllimi, görkəmli ədəbiyyatşünas Firudin bəy Köçərliyə göndərir. Firudin bəy kitabçaları aldıqdan sonra Qoridən Kiyevə göndərdiyi məktublarla Yusif Vəzir yaradıcılığına, onun mədəniyyət sahəsində xidmətlərinə yüksək qiymət verir.

Beləliklə, Yusif Vəzirin Kiyevdəki 5 illik tələbəlik həyatı ədəbi və elmi sahədə çox əlverişli olmuşdu. O zaman o, dini məsələ, qadın məsələləri və uşaq tərbiyəsi ilə son dərəcə maraqlanırdı. Nəticədə “Arvadlarımızın halı”, “Qanlı göz yaşları”, “Ana və analıq” kitabları meydana çıxır. 1915-ci ildə Birinci Dünya müharibəsinin gedişi ilə əlaqədar olaraq alman hücumundan çəkinən çar hökuməti Kiyev Universitetini müvəqqəti olaraq Saratova köçürdüyü üçün Yusif Vəzir universiteti 1915-ci ildə Saratovda bitirir. O, universiteti bitirdikdən sonra Saratov məhkəmə palatasında hakimlik vəzifəsinə namizəd qəbul olunur. Yusif Vəzirin tutduğu vəzifə maaşsız olduğu üçün bir neçə aydan sonra başqa iş axtarmaq üçün Kiyevə gedir. Orada “Zemstvo” təşkilatına daxil olub cəbhəyə gedir.

Fevral inqilabı baş verən zaman Yusif Vəzir Qalitsiyada idi. 1917-ci ildə Ukraynanın həyəcanla doğulan milli hərəkatı bütün Rusiya daxilində yaşayan qeyri-rus millətlərə örnək olur. Bununla əlaqədar Yusif Vəzir 1917-ci ildə Qalitsiyadan Kiyevə gəlir. Orada siyasi təşkilata ehtiyac olduğunu hiss edib Kiyevdə oxuyan azərbaycanlı tələbələri ətrafına toplayaraq Türk Ədəbi Mərkəziyyə firqəsi “Musavatın” Kiyev şöbəsini yaradır. Həmin şöbəyə başçılıq etmək üçün Yusif Vəzir sədr seçilir. Müstəqil Ukrayna Respublikası yarandıqdan sonra Azərbaycan Demokratik Cumhuriyyəti

Yusif Vəziri Ukraynada diplomatik nümayəndə təyin edir. Yenicə işə baslamış diplomatik nümayəndəliyin əsas məqsədi Azərbaycanı Rusiya ictimaiyyətinə tanıtmaq idi. Ona görə də onlar müsamirələr təşkil etməklə bərabər, Azərbaycanın tarixi, ədəbiyyatı, mədəniyyəti, ticarəti və iqtisadiyyatı haqqında çoxlu məqalələr yazıb mətbuatda çap etdirirlər. Beləliklə, Azərbaycan yavaş-yavaş tanınmağa başlayır.

Yusif Vəzir həmin təşkilatda işlədiyi dövrdə "Azərbaycanın Muxtariyyatı" və "Biz kimik və istədiyimiz nədir?" kitablarını yazıb çap etdirir. Yusif Vəziri düşündürən və narahat edən məsələlərdən biri də Azərbaycanın milli marşının olmaması idi. Bununla əlaqədar onun 1917-ci il dekabr ayının 19-da "Açıq söz" qəzetində çap etdirdiyi məqalədə deyilirdi: – Hər bir millətin özünəməxsus bir milli nəğməsi var. O nəğmə oxunduqda millət fərdlərinin ruhu ucalır. Mübarizə edib öz xalqını mühafizə etmək xahişi artır. Bizim isə bu nəğməmiz yoxdur. Odur ki, milli ruhumuz da yoxdur. Düşməni yıxmaq üçün də milli ruh lazımdır. Milli şərqi əmələ gətirmək üçün şairlərimiz və musiqişünaslarımız Üzeyir Hacıbəyov cənabları çalışmalıdırlar.

1918-ci ildə vətəndaş müharibəsi ilə əlaqədar Azərbaycanla rabitə kəsilir. Yusif Vəzir vətəndə baş verən hadisələrdən heç bir informasiya almadığı üçün tutduğu vəzifəsini müavininə tapşırıb Simferopola gedir. Orada bir neçə ay ləngidiyi üçün ədliyyə direktorluğunda məsləhətçi işləyir. Krımdakı "Millət" qəzetində "Azərbaycan və azərbaycanlılar" adlı məqaləsini çap etdirir və Litva tatarlarının tarixi ilə maraqlanaraq onların yaranması və vəziyyəti haqqında tədqiqat aparıb yazdığı "Litva tatarları" adlı kitabçasını 1919-cu ildə Simferopolda (Ağ məscid) çap etdirir.

Yol şəraiti yaxşılaşan kimi Yusif Vəzir Odessaya gedir. Müharibə ilə əlaqədar yollar bağlı olduğu üçün Yusif Vəzir Odessada iki ay qalmalı olur. O, vətənə qayıtdıqda "Azərbaycan" qəzetində "Xarici siyasətimiz", "Milli və mədəni islərimiz" başlığı ilə silsilə məqalələrini çap etdirir. Yusif Vəzir bir müddət Bakıda qaldıqdan sonra Azərbaycan Demokratik Cümhuriyyətinin Nazirlər Şurasının sədri Nəsib bəy Yusifbəyovun təklifi ilə 1919-cu ildə yeni yaranmış Respublikanın səfiri kimi İstanbula göndərilir. Yusif Vəzir İstanbulda diplomatik işlə məşğul olmaqla yanaşı, öz ədəbi fəaliyyətini də davam etdirir. Belə ki, Azərbaycanı və Azərbaycan ədəbiyyatını türk aləminə tanıtmaq üçün elmi müşahidələrlə zəngin olan "Azərbaycan ədəbiyyatına bir nəzər", "Tarixi –coğrafi və iqtisadi Azərbaycan" adlı kitablarını yazıb 1921-ci ildə onları İstanbulda çap etdirir.
Yusif Vəzir Çəmənzəminlinin 1918–1920 illərdə Krımın Ağməscid (Simforopol) şəhərində nəşr olunan "Millət" qəzetində dərc edilmiş 30 yaxın məqaləsi çap edilmişdir.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Yusif Vəzir tutduğu vəzifəsinin artıq bitmiş olduğunu elan edib, Parisdə siyasi elmlər institutunun diplomatiya fakültəsində təhsil alan kiçik qardaşı Mirinin (Mirabdulla) yanına gedir. Fransada hər hansı bir əcnəbinin hüquq sahəsi üzrə işləməsi qeyri-mümkün olduğu üçün Yusif Vəzir maddi vəziyyətinin ağır olması ilə əlaqədar məcbur olub Paris yaxınlığındakı Klişi adlı şəhərə köçüb əvvəlcə Lokomativ, sonralar isə avtomobil zavodlarında fəhləlik edir.O, "Paris xəbərləri" qəzetində də əməkdaşlıq edib "Şərq məktubları" başlığı altında cürbəcür yazılar çap etdirir. Yusif Vəzirin qardaşı Miri 1922-ci ildə təhsilini başa vurub Paris banklarının birində məmur işləyirdi. 1924-cü ildə Miri

qəflətən xəstələnir. Onun on üç ay davam edən xəstəliyi ölümlə nəticələnir.

1925-ci ildə Miri 29 yaşında Parisdə vəfat edir. Yeganə qardaşının vaxtsız vəfatı Yusif Vəziri həddindən artıq sarsıdır, bu ona çox böyük dərd olur. Qardaşını itirdikdən sonra Yusif Vəzir Parisdə böyük çətinliklərlə üzləşir və onu gözləyən təhlükələrə baxmayaraq, vətəni Azərbaycana qayıtmağı qərara alır.

Yusif Vəzir vətəninə qayıtmaq üçün Parisdəki Sovet səlahiyyətli nümayəndəliyinə ərizə ilə və Azərbaycan SSR Xalq Kommisarları Sovetinin sədri Qəzənfər Musabəyova xüsusi məktubla müraciət edir. Qəzənfər Musabəyov Yusif Vəzirdən aldığı məktubu Az.SSR-nin Kommunist Partiyasının birinci katibi Kirova göstərir. Kirov Yusif Vəzirin vətəninə qayıtmaq arzusunu böyük məmnuniyyətlə qarşılayır. Bir ildən sonra Ümumittifaq İcraiyyə Komitəsinin 18 yanvar 1926-ci il tarixli qərarına əsasən Yusif Vəzir sovet vətəndaşlığına daxil olur. Yusif Vəzir 1926-cı ilin aprel ayında həmişəlik olaraq mühacirətdən vətənə qayıdır. Sonralar Stalinə ünvanladığı məktubunda Vəzirov çarəsiz vəziyyətini və on il əvvəl Sovet Azərbaycanına qayıtmasının səbəblərini açıqlayırdı. Vəzirov yazırdı: “Mənim üçün Vətən, dənizdə fırtınalı səyahətdən sonra sığındığım sakit bir liman kimidir”, Qürbət ellərdən vətəninə qayıtmış Yusif Vəzir ilk əvvəl “Bakı işçisi” nəşriyyatında bədii şöbənin redaktoru, sonralar Dövlət Plan Komitəsinin ictimai-mədəni bölməsində ixtisası üzrə vəkil işləmiş və eyni zamanda müəllimliklə də məşğul olmağa başlamışdı. Əvvəlcə, Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq və pedaqoji fakültəsində, sonralar isə Pedaqoji, Tibb və Neft İnstitutlarında Azərbaycan və rus dilləri kafedrasında dərs demişdi. Eyni zamanda Yusif Vəzir Ruhulla Axundovun redaktəsi ilə

çıxmış “Rusca-Azərbaycanca lüğət” in müəlliflərindən biri olmuşdu. Azərbaycan dilində terminologiyanın yaradılmasında da Yusif Vəzir Çəmənzəminlinin böyük xidməti olmuşdur.

## *Ədəbi fəaliyyəti*

Yusif Vəzir 1930-35-ci illərdə Azərbaycan Neft İnstitutunda işləyən zaman, həmin institutda çıxan “Əzizbəyov adına Azərbaycan qızıl Bayraqlı Neft İnstitutunun əxbari jurnalında “Neft və onun tarixi” adlı məqaləsi ilə bərabər bir çox məqalələr yazıb çap etdirmişdir. Yusif Vəzir bir çox hekayələrini “Maarif və mədəniyyət” jurnalında və başqa mətbuat orqanlarında çap etdirir. Sonralar isə “Qızlar bulağı”, “Studentlər”, “1917-ci il” adlı romanlarını çap etdirir. 1935-ci ildə “Həzrəti-Şəhriyar” adlı komik pyesini bitirir. Uzun illər tədqiqatçıların diqqətindən kənarda qalan “Həzrəti-Şəhriyar komediyası, nəhayət, ilk dəfə 1980-ci ildən incəsənət toplusu “Qobustan” jurnalının 4-cü nömrəsində çap olundu. Dünyada geniş tanınmış və bestsellerə çevrilmiş “Əli və Nino” nun Yusif Vəzir Çəmənzəminlinin qələmindən çıxdığını iddia edən ədəbiyyatşünaslar var.

Yusif Vəzir tərcümələr üzərində də işləyirdi. O, L.Tolstoyun, İ.Turgenevin, A.Neverovun, N.Qoqolun, B.Lavrenevin, L.Seyfulinanın, V.Hüqonun və s. bir neçə əsərlərini rus dilindən Azərbaycan dilinə tərcümə etmişdi. O, kino-ssenarilərin tərcüməsi işində də fəal iştirak etmişdi. Yusif Vəzir 1937-ci ilin aprel ayında tamamladığı “İki od arasında” adlı tarixi romanı işdən çıxarıldığı üçün çap etdirə bilməmişdi. Öz sağlığında nəşr etdirmək qismət olmayan Yusif Vəzirin bu tarixi romanı ilk dəfə 1964-cı ildə

“Azərbaycan” jurnalında müəyyən ixtisarla “Qan içində” adı ilə çapdan çıxmışdı. Yusif Vəzir Yazıçılar İttifaqından çıxarılmazdan 3–4 ay əvvəl yazdığı “Altunsaç” adlı kinossenarisini də “Azərfilmə” vermişdi. Geniş mütəxəssis müşavirəsində oxunub bəyənilməsinə baxmayaraq “Azərfilmin” direktoru Merkel son mərhələdə Yusif Vəzirə müraciət edərək demişdi, “Studentlər” romanınız tənqid edildiyi üçün sizinlə müqavilə bağlaya bilməyəcəyəm.

## Təxəllüsləri

“Çəmənzəminli”, Yusif Vəzirovun təxəllüslərindən biridir. Yusif hələ uşaq ikən ailənin çətin zamanlarında aclıq nəticəsində Cənubi Azərbaycanın Çəmənzəmin kəndindən qaçaraq Şuşaya pənah gətirmiş və Yusifgilin həyətlərində sığınacaq tapmış Həsənxan, Nifti və Fərəc qardaşlarının başqa heç bir qohumları onlara kömək etmir. Yusif sağaldıqdan sonra anasına deyir ki, əgər mən gələcəkdə adlı-sanlı adam olsam, mütləq Cənubi Azərbaycandan gəlmiş sədaqətli qonşularımızın kəndlərinin adını özümə təxəllüs qəbul edəcəyəm. Yusif Vəzirin “Çəmənzəminli” təxəllüsünü qəbul etməsi onun həmin ailəyə bəslədiyi hörmət və məhəbbətdən irəli gəlir. Vəzirov “Çəmənzəminli” təxəllüsündən 1911-ci ildən etibarən istifadə etməyə başlamışdır. 1926-cı ildə Sovet Azərbaycanına qayıtdıqdan sonra o, yenidən bu təxəllüslə yazmağa başlamışdı.

Lakin Çəmənzəminlinin Əlyazmalar İnstitutunda saxlanan əsərlərindən görürük ki, Yusif Vəzirov 1904-cü ildən etibarən öz kimliyini gizli saxlamaq üçün ən az 15 təxəllüsdən istifadə etmişdir. Çox zaman onun seçdiyi təxəllüslər simvolik xarakter daşıyırdı, məsələn, “Bədbəxt”, “Haqq tərəfdarı”, “Müsavi”, “Stradayuşiy”, “Sərsəm” və s.

1907-ci ildə Yusif Vəzirin Qarabağın pir və ocaqlarını kəskin tənqid edən yazısı "Molla Nəsrəddin" jurnalında "Bakı realnı məktəbinin altıncı sinif şagirdi Mir Yusif Vəzirov" imzası ilə çap olunur. Bu yazıdan sonra Aşqabadda və Bakının Hacıağa karvansarasında yaşayan qarabağlılar həyacana gəlib Yusif Vəzirə qarşı kin bəsləyirlər.

Aşqabaddan gələn təhqir və hədə məktublarının ardı-arası kəsilmir. Onlar Yusif Vəzirdən "Molla Nəsrəddin" jurnalı vasitəsilə üzr istəməyi tələb edir, əks halda onu öldürəcəklərini bildirirlər. Yusif Vəzir 1907-ci il noyabr ayının 5-də "Təzə həyat" qəzetində izahat verərək bildirir ki, "Molla Nəsrəddin" jurnalında gedən yazısının məqsədi heç də "müqəddəs" pirlərə və ocaqlara sataşmaq deyil, hiyləgərləri ifşa etməkdən ibarət olub. "Mən göstərirəm ki, adını müsəlmən qoyanların içində çoxsu qurd libasına girib, millətə xəyanət edirlər, millətin gözünü bağlayıb, ümumi insaniyyət nöqtəsindən uzaq salırlar. Camaatın dərdinə qalıb məktəblər açmaqdan, yetim uşaqları oxutdurmaqdan ki, gələcəkdə küçələrdə qalıb camaata zərər yetirməsinlər… Bütün bunları eləməyin əvəzində fəqir-füqəranın axır qəpiklərini də alıb ac-acına qoyurlar. Görünür ki, bəzi oxucular məqalədəki alovlu vətənpərvərlik hissini fərqləndirə bilməyib ağızdan-ağıza yalan və şişirdilmiş şayiələr uydurub yayıblar".

1911-ci ildə Vəzirov "Məlik Məmməd" adlı xalq nağılını "Əli Xan Çəmənzəminli" adı altında çap etdirmişdi. Maraqlıdır ki, "Əli Xan", "Əli və Nino" əsərində baş qəhrəmanın adıdır.

### *Əsərləri*

Yusif Vəzir Çəmənzəminli. Əsərləri: I cild – Hekayələri;
Yusif Vəzir Çəmənzəminli. Əsərləri: II cild – Romanları;
Yusif Vəzir Çəmənzəminli. Əsərləri: III cild – Ədəbi-tənqidi və publisist yazıları, oçerk və xatirələri.
Əli və Nino (1937 Əli və Nino Vyana, alman dilində) (müəllifliyi mübahisəlidir)
Altunsaç (1938, Almaniya, alman dilində) (müəllifliyi mübahisəlidir)
İki od arasında (Qan içində) (1968)
Qızlar bulağı
Studentlər (roman) (1934)
Biz kimik və istədiyimiz nədir
Soyuq öpüş
Bir cavanın dəftəri
Həzrəti-Şəhriyar
Gündəliklər
Fokusnik
Cənnətin qəbzi
Qanlı göz yaşları
Ağsaqqal
Xanın qəzəbi
Hacı
Zeynal bəy
Son bahar
Üç gecə

***Görkəmli şəxsiyyətlər Yusif Vəzir Çəmənzəminli haqqında:***

Ey, ol vaxtı görən məsud, unutma bizləri yad et,
Bu yolda həsrət ilə can verən əhdabı tədad et…

**Məhəmməd Hadi,**
*Azərbaycan romantizminin tanınmış nümayəndəsi*

Yusif Vəzir Çəmənzəminlinin Azərbaycan folkloruna, ədəbiyyat tarixinə dair dərin elmi fikirləri və nəzəri tədqiqatları bu gün də böyük əhəmiyyətə malikdir. Yusif Vəzir Çəmənzəminli Azərbaycan bədii nəsri tarixində orijinal simalardan biridir. Xalq yumoruna, xüsusən də Molla Nəsrəddin və Bəhlul Danəndə lətifələrinə incədən-incəyə bələd olan, elmi yaradıcılığında ona yüksək qiymət verən, bədii yaradıcılığında isə ondan məharətlə, yerli-yerində istifadə edən ədibdir.

**Kamran Məmmədov,**
*filologiya elmləri doktoru, professor*

XX əsrin və sovet dövrü ədəbiyyatının ideya-sənətkarlıq cəhətdən zənginləşməsində Yusif Vəzir Çəmənzəminlinin özünəməxsus mövqeyi vardır. Əlinə qələm aldığı ilk vaxtlardan xalqa xidmət etməyə can atan bu qüdrətli ədibin bənzərsiz sənət dünyası indiyədək müxtəlif aspektlərdə təhlil olunsa da, hələ bir sıra məsələlər öz araşdırıcısını gözləyir.

**Yavuz Axundov,**
*filologiya elmləri doktoru, professor*

Yusif Vəzir Çəmənzəminli  Mənim Çəmənzəminlinin istər söhbətlərindən, istər əsərlərindən aldığım təəssürat budur: Yusif Vəzir Çəmənzəminli bizim nasir yazıçılarımız arasında ən savadlısı, elmi, fəlsəfi, tarixi məlumatca ən güclüsü

olmuşdur. Xüsusən, folklore ədəbiyyatımızın fəlsəfi və tarixi izah və təhlilini mən ondan öyrənmişəm. Folklorumuzu islamiyyətdən qabaqkı tarixi həyatımız və fikir dünyamızla ta zərdüştiliyə qədər rabitələndirilməsi elmimizdə, demək olar, hər kəsdən əvvəl onun işi olmuşdur. O, hələ ədəbiyyatşünaslığımızda və ədəbi tənqidimizdə layiq olduğu qiyməti almamışdır.

**Əkrəm Cəfər,**
*filologiya elmləri doktoru, professor*

Yusif Vəzir sənəti öz dərinliyi, təsirliliyi və orijinallığı ilə ədəbi fikrin diqqət mərkəzində dayanırdı. Zəmanəsinin qabaqcıl meyillərini düzgün dərk edən ədib, inqilab ərəfəsində üzünü həmvətənlərinə çevirərək, onları vaxtı itirməməyə, birləşib zülmə, istibdada son qoymağa çağırırdı. Onun mətbuat səhifələrindən ehtiraslı çıxışları, ürəkləri riqqətə gətirən odlu sətirləri təkcə Rusiya və Azərbaycanda deyil, həm də onun hüdudlarından kənarda da özünə pərəstişkarlar, həmfikirlər tapırdı. Bu dövrlərdə onu İranda və Türkiyədə mütərəqqi fikirli bir ziyalı kimi tanıyır, hekayə və məqalələrini oxuyurdular.

**Bəylər Məmmədov,**
*filologiya elmləri namizədi*

Azərbaycan tarixi, coğrafiyası və iqtisadiyyatı, onun mədəniyyəti və mənəviyyatı Yusif Vəzir Çəmənzəminlini bütün yaradıcılığı boyu dərindən maraqlandırmış və məşğul etmişdir. Böyük yazıçı hələ tələbəlik illərində yazdığı hekayələrində, məqalə və risalələrində bu sahədə bilik və düşüncələrini daim doğma xalqına çatdırmağa çalışmış, ziyalılarımızı tariximizi və dilimizi öyrənməyə çağırmışdır. Bu çağırışı eşitmək istəməyənləri isə mənəviyyatsızlıqda,

siyasi, milli, hətta iqtisadi düşüncəsizlikdə günahlandırmışdır.

Yusif Vəzir Çəmənzəminlinin hekayələrinə ümumi bir nəzər saldıqda, aydın görmək olur ki, bu əsərlər müxtəlif mövzularda olub, müxtəlif məsələləri əks etdirir. Lakin hekayələrin mövzuları və əks etdirdiyi məsələlər nə qədər müxtəlif olsa da, bunların hamısının arasında zəncirvari məna və məzmun bağlılığı var. Sanki bütün bu hekayələr vahid süjet xətti olan böyük və mürəkkəb bir əsərin bir-biri ilə möhkəm əlaqəsi olan parçalarıdır.

**Tofiq Hüseynoğlu,**
*filologiya elmləri doktoru, professor*

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri, öz yaradıcılığı ilə milli ədəbiyyatımızın çərçivəsindən çıxaraq, ümumsovet ədəbiyyatında tanınıb məşhurlaşmış sənətkarlarımızdan biri də Yusif Vəzir Çəmənzəminlidir. Onun görkəmli şəxsiyyətlərimiz cərgəsində öz yeri, öz mövqeyi vardır. Çəmənzəminli sözün geniş mənasında ədibdir, öz xalqının etimadını doğrultmuş, qələmini onun xidmətinə vermiş, xalqdan ilham almış, xalqın həyatını təsvir etmişdir.

**Əkbər Ağayev,**
*filologiya elmləri doktoru, professor*

Folklorun tədqiq, təhlil və təbliğində də Yusif Vəzir müstəsna xidmətləri olan sima kimi tanınmışdır. O, bədii yaradıcılığında bu zəngin xəzinədən məharətlə faydalandığı kimi, mürəkkəb folklor aləminin tarixi-nəzəri məsələləri ilə də bir alim kimi çox ciddi məşğul olmuşdur.

**Bəhlul Abdullayev,**
*əməkdar elm xadimi, filologiya elmləri doktoru*

Yusif Vəzir Çəmənzəminli yardıcılığı boyu vətən məhəbbəti, azərbaycançılıq, milli təəssübkeşlik, ümumiyyətlə milli ideyalara sədaqət ifadə edən detalları önə çəkmişdir. Bütün ömrü boyu Yusif Vəzir Çəmənzəminli millətlərin dostluğu və qardaşlığının dinc və mehriban yaşamalarının təbliğinə çalışan yazıçı milli məsələyə münasibətini “Studentlər” romanında daha geniş əks etdirmişdir.

**Vaqif Arzumanlı,**
*filologiya elmləri doktoru, professor*

Milli məsələnin xalqın müqəddəratı, taleyi, ərazisi, dini, dili, mədəniyyəti və mənəviyyatı ilə, milli oyanışla əlaqədar münasibətlərin toplusu kimi vahid bir məqsədə yönəldilməsində Yusif Vəzirin əvəzsiz xidmətləri olmuşdur. Əlikram Tağıyev fəlsəfə elmləri doktoru, professor Zəngin və çoxyönlü yaradıcılıq yolu keçən, siyasi-ictimai həyatla, ədəbi mühitlə, çeşidli sənət adamları ilə, Azərbaycan Xalq Cümhuriyyəti ilə daha sıx bağlı olan, cümhuriyyətin carçısı, Ukraynada nümayəndəsi, Türkiyədə elçisi kimi tanınan, Fransada sıxıntılı mühacir həyatı yaşayan, 30-cu illərdə vətənə dönüb, 1938-ci ildə repressiya qurbanı olan Y.V.Çəmənzəminlinin maraqlı memuarları və avtobioqrafik əsərlərini elmi-tədqiqat mövzusuna çevirmək və sistemli şəkildə öyrənmək elmi vəzifədir, vətəndaşlıq borcudur. Yusif

Vəzir öz həmkarları arasında yeganə sənətkardır ki, Qarabağ tarixi,Şuşa mühiti, həyatının Ukrayna,Türkiyə, Fransa dövrü, Azərbaycan Xalq Cümhuriyyəti, onunliderləri, Azərbaycan mühacirləri və başqa gərəkli, az öyrənilmişm əsələləri faktlarla bədii əsərlərinə gətirmişdir.

**Əflatun Saraclı,**
*filologiya elmləri doktoru, professor*

Ömrü boyu bədii nəsr sahəsində qələm çalan Yusif Vəzir sənət və ədəbiyyat aləmində həm gözəl tarixi romanlar müəllifi, həm də kiçik hekayələr ustası kimi şöhrət qazanmışdır. Ədibi müasirlərdən fərqləndirən mühüm bir cəhət də onun şifahi xalq ədəbiyyatına hərtərəfli bələd olması, geniş mütaliə, dərin bilik və məlumat sahibi kimi tanınmasıdır.

**Firidun Hüseynov,**
*filologiya elmləri doktoru, professor*

Yusif Vəzir Çəmənzəminlinin hekayələri orijinal, fərdi üslubi xüsusiyyətlərinə, özünəməxsus yazı manerasına, təsvir və təhkiyə vasitələrinə görə seçilir, diqqəti cəlb edir. Onun əsərlərinə başqa tənqidi realistlərdən fərqli olaraq lirik dramatik ricətlər, psixoloji təsvir güclüdür.

**Xalid Əlimirzəyev,**
*filologiya elmləri doktoru, professor*

Yusif Vəzir folklorumuzun, milli ədəbiyyatımızın, keçmiş tariximizin, musiqimizin tədqiqatçısı kimi milli mədəniyyətimizə yorulmadan xidmət etmişdir. Əgər hər bir həqiqi yazıçı üçün çox vaxt xüsusi mövqe tutub tək qalmaq hünər tələb edirsə, Çəmənzəminli bir sənətkar kimi bu hünər ilə payına düşən bütün ağır sınaqlara davam gətirmiş və

doğruçu, vicdanlı yazıçı sözü uğrunda fədailik missiyasını yerinə yetirmişdir.

**Ənvər Məmmədxanlı,**
*xalq yazıçısı*

Yusif Vəzir Çəmənzəminli bu gün də, sabah da bizdən sonra gələcək neçə-neçə nəsillərin sevimli yazıçısı olaraq qalacaqdır. Özündən sonra çox zəngin ədəbi irs qoyub getmiş olan Yusif Vəzir Çəmənzəminlinin əsərləri tədqiq və təbliğə layiq bir xəzinədir. Yusif Vəzir Çəmənzəminli də hekayə janrının gözəl nümunələrini vermiş C.Məmmədquluzadə, Ə.Haqverdiyev kimi yazıçılarımızla yanaşı duran bir ədəbi simadır...

**Məryəm Axundova,**
*jurnalist*

*Azərbaycan dilində terminologiyanın yaradılmasında da böyük xidməti olan Yusif Vəzir Çəmənzəminlinin 135-illik yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri "Xalqa həsr edilmiş həyat" adlı* ***dəyirmi masa*** *ola bilər. Tədbir oxucuların iştirakı ilə kitabxanada keçirilir. İlk olararaq kitabxanaçı səhnəyə çıxıb qonaqları salamlayır və Yusif Vəzir Çəmənzəminlinin yaradıcılığı haqqında qısa məlumat verir.*

*Kitabxanaçı:* Çoxəsirlik Azərbaycan ədəbiyyatı tarixində Yusif Vəzir Çəmənzəminlinin adı və yaradıcılığı xüsusi yer tutur. Çox bilikli, geniş ədəbi qabiliyyətə malik, vətənpərvər və beynəlmiləlçi olan Yusif Vəzir Çəmənzəminli bütün istedadını doğma xalqın mənəvi sərvətlərinin inkişafına səxavətlə sərf etmiş, ona öz yazıçı, publisist, alim qələmi ilə fədakarcasına xidmət göstərmişdir. Görkəmli söz ustası geniş planlı əsərlərində millətinin həyatının mənzərələrini, doğma

yurdununn tarixini əks etdirmişdir. Gözəl sənətkarın zamanın keşməkeşlərindən çıxmış yaradıcılığı xalq tərəfindən ürəkdən sevilir. Kitabxanaçının məlumatından sonra tədbirə dəvət olunmuş məktəbin ədəbiyyat müəllimi şagirdləri Çəmənzəminli yaraıcılığı ilə yaxından tanış edir. Ədibin dəyərli fikirlərindən sitat gətirir.

***Yusif Vəzir Çəmənzəminlinin müdrik fikirləri***

Bizim bütün məqsəd və amalımız Azərbaycanımızdır!
Ən yüksək sənət mənəviyyat qanadlarında yaranır. İstibdadın mahirliyi bu qanadı qırmaqdır. "Mən yaradıram" – demək, "qanadlanıram" – deməkdir...
Yazıçı alim və geniş məlumatlı adam olmalıdır. Məlumat olmasa, yazıçı yüksələ bilməz.
Hər ölkənin ədəbiyyatı o ölkənin tarixi qədər qədim olmalıdır.
Azərbaycan türkləri zəngin bir xalq ədəbiyyatına malikdirlər.
Ey ziyalılar! Qafqaziyanın böyük və bərəkətli bir qismi biz Azərbaycan türklərinindir. Burada torpağın və mülkün çoxu bizim, dövlət bizim, onda yaşayan millətin çoxu bizim, danışılan dil bizim, ruhumuzu bəsləyən musiqi və ədəbiyyat bizim...
Azərbaycanda hamıdan artıq olan biz türkləri mülahizə etdikdə özümüzü xoşbəxt görürəm, çünki torpağımıza söykənsək, heç bir düşmən bizə xətər yetirə bilməz.
Nağıl xalq ədəbiyyatına məxsusdur. Xalqın ruhunun, etiqadlarının məhsuludur. Bütün şüarlarımız xalqa doğru olduğu Yusif Vəzir Çəmənzəminli üçün nağılın əhəmiyyəti bir qat daha artır. Belə olan surətdə nağıllarımızı toplamaq və nəşr etmək ən birinci mədəni məsələlərimizdən olmalıdır.
Ana insaniyyətin məşəl aparanıdır. Bu nə qədər qabil olsa,

bir o qədər insaniyyətin getdiyi yolu lazımınca işıqlandırmağa qadir olar. Bunu həqiqi analar gözəlcə düşünürlər və çalışırlar ki, daha da qabil və kamil olsunlar.

Azərbaycan ədəbiyyatında özünəməxsus izi olan ədiblərindən olan Yusif Vəzir Çəmənzəminlinin 135 illik yubileyi münasibəti ilə kitabxanada keçirilən tədbirlərdən biri də *"Ziyalı düşüncəsi"* adlı k**itab müzakirəsidir.**
Kitabxanaçı tədbirlə əlaqədar kitabxananın oxu zalına yığışan iştirakçıları salamladıqdan sonra öz sözlərinə keçid alır.
Çəmənzəminli Yusif Vəzir. Əsərləri. Üç clddə. I cild. Bakı, "AVRASİYA PRESS", 2005, 360 səh.
İstedadlı nasir, milli ədəbiyyatımızda tarixi roman janrının ən qüdrətli yaradıcılarından biri, hekayə ustası, alim, folklor tədqiqatçısı, dramaturq, publisist, maraqlı xatirələr müəllifi, pedaqoq, ictimai xadim və bütün bu müxtəlif cəhətlərin ümumi nəticəsi olan yüksək ziyalı anlayışını ömrü boyu şərəflə daşıyan Yusif Vəzir Çəmənzəminli zəngin və mürəkkəb bir həyat yolu keçmiş, gördüklərini, yaşadıqlarını, düşündükərini parlaq bədii boyalarla əks etdirmiş və mədəniyyətimiz tarixində həmişə yaşayacaq qiymətli bir irs qoyub getmişdir. 3 cildli "Əsərləri" nin bu cildində Yusif Vəzir Çəmənzəminli ədəbi irsinin yalnız bir hissəsi-hekayələr toplanmışdır. Hekayə onun yaradıcılığında başlıca yer tutur. Bu janr ilə ədib yaradıcılığı boyu ardıcıl surətdə məşğul olmuşdur. Həmin janrda qələmə aldığı əsərlərdə yazıçının bütün sənətkatrlıq xüsusiyyətlərini aydın görmək mümkündür.
Çəmənzəminli Yusif Vəzir. Əsərləri. Üç cilddə. II cild. Bakı, "AVRASİYA PRESS", 2005, 664 səh.

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında kiçik hekayə janrının görkəmli yaradıcılarından biri kimi tanınmış Yusif Vəzir Çəmənzəminli eyni zamanda iri həcmli əsərlər müəllifidir.
Oxuculara təqdim olunan bu cilddəki “Studentlər”, “Qızlar bulağı”, “İki od arasında”, əsərləri ilə Yusif Vəzir Çəmənzəminli ədəbiyyatımız tarixində bir romançı kimi də xüsusi yer tutur.
Kiev təhsil illərinin müşahidələrindən doğan “Studentlər” romanı Çəmənzəminlinin ictimai fikir meydanında söylədiyi öz sözü öz mülahizələri idi.
Yazıçının “Qızlar bulağı” əsəri ədəbiyyatımızda ilk tarixi-fəlsəfi romandır. Doğma xalqın taleyi və tarixi Yusif Vəzir Çəmənzəminli ömrü boyu düşündürmüş, o bu xalqın mənşəyini, uzaq zamanların qaranlığında itən köklərini arayıb axtarmış və romanda özünəməxsus baxımdan əks etdirmişdir.
Vətənin taleyi haqqında mühüm tarixi keçidlərdə xalqımızın qarşısına çıxan “olum”, ya “ölüm” məsələləri haqqında dərin düşüncələr Yusif Vəzir Çəmənzəminlinin XVIII əsrin böyük sənətkarı və dövlət xadimi Molla Pənah Vaqifin adıyla bağlı olan “İki od arasında” romanında yüksək bədii sənətkarlıqla, həqiqətə güzəştsiz sədaqətlə əksini tapmış və roman ədəbiyyatımızın qızıl fonduna daxil olmuşdur. Romanların mətni müəllifin əlyazmaları ilə tutdurulmuş, əvvəlki nəşrlərdə siyasi-ideoloji mülahizələrlə aparılmış ixtisaslar bərpa edilmişdir.

Çəmənzəminli Yusif Vəzir. Əsərləri. Üç cilddə. III cild. Bakı, “AVRASİYA PRESS”, 2005, 440 səh.
Əsərlərində xalq nağıllarının ruhunu, Azərbaycan dilinin sehrini qoruyub saxlamış, bu dilə bu ədəbiyyata ömrünün son

gününə qədər namusla xidmət etmiş Yusif Vəzir Çəmənzəminli Azərbaycan ictimai fikrinə təkcə zəngin bədii yaradıcılığı ilə daxil olmamışdır. Onun milli folkora, ədəbiyyat tarixinə dair dərin tədqiqləri bu gün də əhəmiyyətini saxlayır.

"Əsərləri" nin oxuculara təqdim olunan bu son cildində yazıçının ədəbi-tənqidi və publisist yazıları, oçerk və xatirələri ilə yanaşı, "Bir cavanın dəftəri", "Həzrəti Şəhriyar", "Altunsaç" kimi bədii nəsr, dram və ssenariləri, "Azərbaycan ədəbiyyatına bir nəzər", "Tarixi, coğrafi və iqtisadi Azərbaycan" və s. əsərləri toplamışdır.

Cildə salınmış müxtəlif məzmunlu və rəngarəng yazıları Yusif Vəzirin hekayələri, felyetonları ilə sıx əlaqəlidir, onlardakı fikirlərin publisist tərzdə ifadəsidir. Dilimizi, ədəbiyyatımızı, zehnimizi dünyanın mədəni sərvətləriylə zənginləşdirmək istəyindən yaranmış həmin məqalələr ədibin romanlarını da tamamlayır, onların ideya və bədii dəyərlərinin daha yaxşı işıqlandırılmasına kömək edir.

Yusif Vəzir Çəmənzəminli. Əli və Nino, Bakı, "Səda", 2004. Ədibin növbəti kitabıdır.

Çəmənzəminli Yusif Vəzir. Studentlər. Bakı.
"AVRASİYA PRESS", 2006, 408 səh.

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında kiçik hekayə janrının görkəmli yaradıçılarından biri kimi tanınmış Yusif Vəzir Çəmənzəminli eyni zamanda iri həcmli əsərlər müəllifidir.

Oxuculara təqdim olunan bu cilddəki "Studentlər" romanı Çəmənzəminlinin ictimai fikir meydanında söylədiyi öz sözü, öz mülahizələri idi.

Romanların mətni müəllifin əlyazmaları ilə tutuşdurulmuş, əvvəlki nəşrlərdə siyasi-ideoloji mühalizələrlə aparılmış ixtisarlar bərpa edilmişdir.

Yusif Vəzir Çəmənzəminli. Cənnətin qəbzi Bakı, Kitab Klubu. Org, 2018, 158 səh.
İstedadlı nasir, milli ədəbiyyatımızda tarixi roman janrının qüdrətli yaradacılarından biri, hekayə ustası, dramaturq, publisist, alim, folklor, tədqiqatçısı, maraqlı xatirələr müəllifi, pedaqoq, ictimai xadim və bütün bu müxtəlif cəhətlərin ümumi nəticəsi olan yüksək ziyalı anlayışını ömrü boyu şərəflə daşıyan Yusif Vəzir Çəmənzəminli zəngin və mürəkkəb bir həyat yolu keçmiş, gördüklərini, yaşadıqlarını, düşündüklərini parlaq bədii boyalarla əks etdirməklə ədəbiyyat tariximizdə həmişə yaşayacaq qiymətli bir irs qoyub getmişdir. Kitaba Yusif Vəzirin hekayə, nağıl və publisistik numunələri daxil edilmişdir. Kitabı oxuduqca, qələmə alınan bütün əsərlərdə yazıçının sənətkarlıq xüsusiyyətlərini aydın görmək mümkündür.

Tarixi roman janrının qüdrətli yaradacılarından biri - Yusif Vəzir Çəmənzəminlinin yubileyi ilə keçirilən təbdirlərdən biri *də "Kiçik hekayələrdə böyük sənətkarlıq üslubu"* adlı **oxucularla söhbətdir.**
*Kitabxanaçı tədbir iştirakçılarını salamladıqdan sonra ədib haqqında məlumat verir. Tədbirə dəvət almış xüsusi qonaqlar Yusif Vəzir Çəmənzəminlinin ömür yolu və onun məsuldar yaradıcılığından söhbət açır.*

**I İştirakçı:**
***(Yusif Vəzir Çəmənzəminlinin yaradıcılığı əsasında)***

XX əsr Azərbaycan ədəbiyyatında Cəlil Məmmədquluzadə kiçik hekayələrin böyük ustadı kimi tanınmışdır. Cəlil Məmmədquluzadənin əsərlərində əsas mövzulardan biri qadınlara qarşı edilmiş haqsızlıqlar olub. Müəllifin digər əsərləri ilə yanaşı, həmçinin "Ölülər" əsərində də qaldırdığı məsələlərdən biri məhz qadın hüquqsuzluğudur.
Cəlil Məmmədquluzadədən sonra Azərbaycan ədəbiyyatında kiçik hekayələr müəllifi olan Yusif Vəzir Çəmənzəminlinin əsərlərində qadınların hüquqsuzluğu, savadsızlığı (təhsil ala bilməmələri), daha sonra xurafat, saxtakar mollalar, məşədilər, kərbəlayılar, hacılar və s. haqqında dönə-dönə söhbət açılır.
Yusif Vəzir Çəmənzəminli əsərlərində qaldırdığı problemləri yeri gələndə satira ilə, yeri gələndə yumorla, yeri gələndə də xalq yaradıcılığı örnəklərinin köməyi ilə daha kəskin, daha sərt şəkildə oxucularına çatdırır. Bu baxımdan onun yaradıcılığında sözlü ədəbiyyat örnəklərindən bəhrələnmə geniş yer tutur. Məsələn, Y.V.Çəmənzəminlinin "Toy" hekayəsində az yaşlı qız uşağının qoca kişiyə ərə verilməsinə etiraz əlaməti olaraq hekayənin əvvəlində deyilir ki:

Mən bu dərədən ötmərəm,
Çadramı yellətmərəm,
Ağsaqqala getmərəm,
Hoqqabaz oğlan gərək,
Kəkili saz oğlan gərək!..

Əsərin əvvəlində verilən bu mətndən artıq oxucuda hekayənin ümumi məzmunu haqqında təsəvvür yaradır. Y.V.Çəmənzəminli "Toy" hekayəsində yazır ki, kişinin arvadı vəfat edir, o, on il gözləyir. Kişi bu on ili ona görə

gözləyir ki, baldızı hələ uşaqdır. Vaxt yetişir və həmin o körpə qız uşağı on dörd yaşına çatır, vəfat etmiş bacısının həyat yoldaşına ərə getmək üçün əyninə gəlinlik paltarı geyinir və ağlaya-ağlaya bu sözləri deyir: “mən o kişidən qorxuram; bacımı çərlədən kişi məni də öldürəcək”. Hekayədə on dörd yaşlı qız uşağının fəryadı, əslində, həmin dövrün az yaşlı qız uşaqlarının etiraz səsi idi. Ümumiyyətlə, “Toy” hekayəsində Y.V.Çəmənzəminlinin yaratdığı surətlər tipik surətlərdir. M.F.Axundov “Hacı Qara” əsərində Hacı Qaranı dövrün acgözlüyü, hiyləgərliyi ilə seçilən insanlarının tipik obrazı kimi yaratmışdırsa, Yusif Vəzir də burada eyni ilə obrazların xarakterlərinə uyğun olaraq onları tipikləşdirmişdir. Məsələn, on dörd yaşlı qız uşağı dövrünün çarəsiz qız uşaqlarının tipik surəti idi. Eynilə hekayədəki digər obrazlar da belədir.

On dörd yaşlı qız uşağının əynindəki gəlinlik donu onu ağ günə yox, qara günə aparırdı. Ağsaqqala, özü də ölmüş bacısının həyat yoldaşına ərə gedən, əslində, öz bacısının günüsünə çevrilən on dörd yaşlı bir qız uşağı heç vaxt xoşbəxt ola bilməzdi. Həmin yaşda qız uşaqları ər evində yox, ata evində olub təhsil almalıdırlar. Əsil xoşbəxtlik ağ libasla ölçülmür, əsil xoşbəxtlik odur ki, qarşı tərəflər bir-birinin fikirlərini, istəklərini başa düşə bilsinlər.

Yusif Vəzir Çəmənzəminli “Millətpərəstlər” hekayəsində də qızların rahat yaşamaları, rahat təhsil almaları məsələsinə toxunmuşdur. Bu hekayədə hadisələr bu cür baş verir: küçədə əli kitablı balaca bir qız uşağı məktəbə gedir. İlk olaraq Məşədi Qasım qıza yaxınlaşaraq, ondan kimin qızı olduğunu soruşur və iki barmağı ilə qızın yanağına toxunur. Qız uşağı cavab vermədən evlərinə qaçır. Daha sonra qız Kərbəlayı Balaşa, Keçəl Vəliquluya, Kərbəlayı Ramazana, Hacı Qənbərə rast gəlir. Bunlar da ondan kimin qızı olduğunu

soruşurlar. Əslində, qız uşağından kimin qızı olduğunu soruşmalarında məqsəd onun atasını tanımaq və elçi düşüb elmə, təhsilə marağı olan qızı almaq idi. Bu işdən qızın anası xəbər tutur, qızını məktəbə qoymur. Qızın kitablarını əlindən alıb evə səpir. Məktəb paltarını çıxardıb atır sandığa. Qızına da köhnə arxalıq geydirib, oturdur yun darağının dalında. Qız uşağının məktəb paltarının çıxardılıb sandığa atılması onun hüquqlarının bükülüb sandıqda həbs olunması deməkdir. Əgər cəmiyyətdə o cür saxtakar, ikiüzlülər olmasaydı, o qız uşağı yun darağının arxasında yox, məktəbdə parta arxasında əyləşəcəkdi.

Yusif Vəzir Çəmənzəminli yazıçı olmaqla yanaşı, həmçinin gözəl folklorşünas alim idi. XX əsr Azərbaycan folklorşünaslıq elminin inkişaf edib, geniş qol-budaq atmasında sözsüz ki, Yusif Vəzirin az rolu olmamışdır. Y.V.Çəmənzəminli istər romanlarında, istərsə də hekayələrində folklor mətnlərindən çox sıx istifadə edirdi. Bunun əsas səbəbi ondan ibarətdir ki, Y.V.Çəmənzəminli folklor toplayıcısı idi. O folklora dərindən bələd idi. Folklor mətnlərinin onun əsərlərində geniş yer almasının digər səbəbi budur ki, yazıçı bu yolla həmin mətnlərin it-bat olmasının qarşısını alırdı. Həmin əsərlər bir mənbə kimi gələcəkdə istifadə olunsun deyə o bu işləri görürdü. Bu günün özündə belə Y.Vəzirin yaradıcılığı müxtəlif rakurslardan araşdırılır.

Yusif Vəzir Çəmənzəminli “Dərdli Züleyxa” hekayəsində də ənənəsinə sadiq qalaraq mətn daxilində folklor nümunələrindən istifadə edir. Müəllif digər əsərlərində olduğu kimi, bu hekayəsində də qadınların hüquqsuzluğunu önə çəkir. “Dərdli Züleyxa” hekayəsinin giriş hissəsində verilən bir cümləyə əsasən hekayənin nədən bəhs etdiyini müəyyən etmək heç də çətin deyil. Hekayədən oxuyuruq: "Yarımçıq bir otaqda çarpayıdan on altı-on yeddi yaşlarında

bir arvad qalxdı". Bəli, bu hekayədə bəxtsiz bir qız uşağının həyatının acı həqiqətləri ön plana çəkilmişdir. Axı on altı-on yeddi yaşlarında bir qız uşağı ər evində yox, məktəbdə olmalıdır. Züleyxanın həyat yoldaşı ona baxmır, hətta ona zor, güc də tətbiq edir. Bütün bunlara görə Züleyxa həyatını ağrı-acılarla keçirdir. Yusif Vəzir burada maraqlı, düşündürücü və fəlsəfi anlamı olduqca böyük olan bir cümlə yazır. Hekayədən oxuyuruq: “İnsan həyatında güclük çəkirsə, onda həmişə keçmişi xatırlar, unudulmuş vəqələri, hafizədən silinmiş nöqtələri zehnində canlandırmağa çalışar, ondan bir xoşluq duyar, təsəlli tapar”. Yusif Vəzirin qeyd etdiyi bu fikir, əslində Dərdli Züleyxanın keçmişinə bir nəzər salmaqdan ötrü idi. Həm də Y.V.Çəmənzəminli burada müqayisə aparır və müqayisəni örnək kimi dövründəki valideynlərə göstərmək və gələcək nəsillərə ötürmək istəyir. Dərdli Züleyxa da hazırda ağrı-acılar çəkə-çəkə keçmişi xatırlayır. Yusif Vəzir Çəmənzəminli yenə burada da folklor materiallarından istifadə edir. Həmin folklor nümunələrindən bir neçəsini burada qeyd edəcəyik. Züleyxanın ailəsi Novruz bayramında bir neçə ritualı icra edir. Məsələn, bir dəfə axır çərşənbə axşamı bir badya su qoyub, “Vəsfi-hal” saldılar. Anası badyanın başında oturub, cocuqlardan nişanə aldı. Züleyxanı nişanə alaraq mücrüsünün açarını vermişdi. Anası nişanələri badyaya salıb dedi:

Güzgünü atdım bayıra,
Şövqi-şəfəqi çayıra.
Yığılıb qohum qardaşlar,
İşimiz dönüb xeyirə.

Bundan sonra arvad əlini badyaya saldı, ilk əlinə Züleyxanın açarı gəldi. Hər kəs heyrət ilə onun üzünə baxıb, səadətinə qibtə etdilər. Təəssüflər olsun ki, Züleyxanın taleyi qibtə olunan talelərdən olmadı. Yusif Vəzir Çəmənzəminli

qadınların hüquqsuzluğundan bəhs edən digər hekayələrində cəmiyyəti bu cür bəladan ayıltmaq üçün onlara çıxış yolunu da göstərir.

Yusif Vəzir Çəmənzəminlinin hekayələri kiçik olmasına baxmayaraq, onlarda çoxlu mətləblərə toxunulur. Yusif Vəzirin əsərlərini, hətta XX əsr Azərbaycan mühitinə dair ensiklopedik səciyyəli əsərlər adlandırsaq, məncə, yanılmarıq. Çünki Yusif Vəzir dövrünün problemlərini əsərlərinə gətirməyi bacarırdı. O, yaranmış olan bu və ya digər problemlərin həllini, çıxış yolunu elə öz əsərlərində də açıb göstərirdi.

Ümumiyyətlə, fikrimizi yekunlaşdırıb belə qeyd edə bilərik ki, Yusif Vəzir Çəmənzəminlinin əsərləri məkanından, zamanından asılı olmayaq, öz aktuallığını hər zaman qoruyub saxlayacaqdır.

***II İştirakçı: Yusif Vəzir Çəmənzəminlinin "İki od arasında" ("Qan içində") əsərində Vaqif obrazının təhlili***

Qarabağ, onun timsalında bütöv Vətən, doğma diyarın azadlığı böyük Azərbaycan yazıçısı Yusif Vəzir Çəmənzəminlinin yaradıcılığından qırmızı xətlə keçir. Ədibin 1937-ci ildə qələmə aldığı və ilk dəfə 1964-cü ildə "Qan içində" adı ilə işıq üzü görən "iki od arasında" romanı da məhz bu mövzudadır. Vətəni dərin məhəbbətlə sevən Y.V.Çəmənzəminli Qarabağ xanlığının tarixindən bəhs edən əsərini təsadüfən "iki od arasında" adlandırmamışdır, Bununla o, xalqını iki böyük qonşu dövlətlərin - Rusiya ilə iranın məngənəsində qaldığına, bundan ciddi ziyan çəkdiyinə işarə etmişdir.

Romanın əsas qəhrəmanlarından biri böyük söz ustadı M.P.Vaqifdir. Lakin müəllif M.P.Vaqifi yalnız gözəllikdən ilham alan şair kimi səciyyələndirməmiş, həm də onun

eşikağası vəzifəsində xanlıqda mühüm mövqe tutan mahir bir siyasətçi, diplomat obrazını yaratmışdır.

M.P.Vaqifin şair təbiəti ilə eşikağası vəzifəsində fəaliyyəti bir-birini tamamlayır. O, şeir, sənət adamı kimi nə qədər xəlqidirsə, gözəlliyə, xeyirxahlığa nə qədər həssasdırsa, xanlıqdakı vəzifəsində də bir o qədər məsuliyyətli, tədbirli və təəssübkeşdir. Hətta o, bəzən diplomat kimi fəaliyyətində də şairliyindən bəhrələnir və bu ona təkcə Qarabağ xanlığında deyil, qonşu əyalətlərdə də böyük hörmət qazandırır. Heç təsadüfi deyildir ki, M.P.Vaqif Qarabağ xanlığının nümayəndəsi kimi İrakli xanın sarayında təşkil olunan rəsmi tədbirlərdə iştirak etmək üçün Tiflisə təşrif gətirəndə qonşu xanlıqlann nümayəndələri müxtəlif məsələlərə dair məsləhət almaq üçün onunla görüşə can atırlar. Bu cəhətdən Axalsıq paşası Süleymanın nümayəndəsinin qoltuqçu qiyafəsində onun yanına gəlməsi səciyyəvidir. İşin mahiyyəti isə rusların Terek çayına körpü salmaları, dağlardan yollar açıb Tiflisə gəlmələri ilə əlaqədar idi. Ümumi düşmən qarşısında xanlıqların qüvvələrini biriəşdirmələrinin zəruriliyini yaxşı başa düşən M.P.Vaqif eyni zamanda tədbirli olmağı da yaddan çıxarmır, Süleyman paşanın nümayəndəsi ilə diplomatik tərzdə söhbət aparır.

M.P.Vaqifin çox ehtiyatlı, hər şeyi ölçüb-biçən bir siyasətçi olduğu onun İrakli xanın sarayında keçirilən tədbirdə oxuduğu şeirdə daha aydın nəzərə çarpır. Burada Vaqif Rusiya himayəsinə girmiş müstəqil padşah olan Irakliyə yenə vali kimi müraciət edir. Əlbəttə, Vaqif “vali” yerinə “padşah” deyə bilərdi, lakin o, “padşah” sözü ilə İrana qarşı olan münasibəti pozmuş olardı. Bu isə Qarabağ xanlığının xeyrinə deyildi. Beləliklə, Rusiya çarın nümayəndəsi Burnasov şərq diplomatının ehtiyatkarlığına heyran qalır.

M.P.Vaqif təmsil etdiyi Qarabağ xanlığının eşikağası kimi vəzifəsini xanlığın müstəqilliyinə nail olmaqda, qonşularla əlaqələri genişləndirməkdə, doğma diyarın inkişafını mütərəqqi istiqamətə yönəltməkdə görür. O, mühafizəkar İranla müqayisədə Rusiyanı daha etibarlı himayədar hesab edir. Lakin Vaqif Rusiyanın himayəsinə keçməklə Qarabağ xanlığının müstəqilliyinin məhdudlaşdırılması ilə də barışa bilməzdi. Rusiya çariçasının camaatın güzəranına biganə yanaşması, Gürcüstanla müqayisədə Qarabağ xanlığına fərqli münasibət bəsləməsi Vaqifı bərk narahat edir. Buna görə də o, Tiflisdə Rusiyanın təmsilçisi Burnasovla söhbətində mövqeyini birmənalı şəkildə, lakin çox ehtiyatla ifadə edir.

Əsərdə Vaqifin şair təbiətini, xalqa yaxınlığını, uzaqgörən diplomat olmasını səciyyələndirən belə bədii səhnələr çoxdur. Bütün bunlan ümumiləşdirib aşağıdakı qənaətə gəlmək mümkündür: Y.V.Çəmənzəminli böyük şair Vaqifi sarayda xalqın təmsilçisi kimi xarakterizə etmək istəmişdir. M.P.Vaqif xalq müdrikliyinin təcəssümüdür.

*Kitabxanada şairin yubilieyi ilə bağlı keçiriləcək tədbirlərdən biri də "Stalin repressiyası dövrü" adlı* ***oxucularla görüş*** *keçirə bilər.*

1937-ci il Stalin təmizləmələrinin ən çətin illərindən biri idi. Azərbaycan Yazıçılar İttifaqı da öz növbəsində (digər sovet qurumları kimi) ciddi cəhdlə "sıraları təmizləyirdi". Vəzirov da hədəf alınmış 20-yə yaxın yazıçı arasında idi. O, sovetlərə qədərki dövrdə dini istismarı tənqid edəcək qədər cəsarətli yazıçı olduğunu deyərək özünü müdafiə etməyə çalışırdı. Azərbaycan Yazıçılar İttifaqının III Plenumunda (mart, 1937-

ci il) İttifaqın sədri Seyfulla Şamilov aralarında Vəzirov da olmaqla bir sıra yazıçıları tənqid atəşinə tutdu. On doqquz iyun 1937-ci ildə "Ədəbiyyat" qəzetində Çəmənzəminlini əks-inqilabçı olmaqda ittiham etmək haqqında məqalə çap edildi. Onu "Studentlər" və "Qızlar bulağı" kimi romanlarında mənfi obrazlar vasitəsilə əks-inqilabi fikirlər təbliğ etməkdə ittiham edirdilər. İçində olduğu təhlükəni dərk edən Çəmənzəminli əlyazmalarının böyük bir hissəsini yandırdı.

1937-ci ildə o, Azərbaycan Yazıçılar İttifaqının üzvlüyündən çıxarılır və bununla da iş tapmaq imkanını itirir.

Həyatını xalqın istiqlaliyyətinə və tərəqqisinə həsr edən Yusif Vəzir özündə heç bir günah görməyib 1937-ci il may ayının 20-də Azərbaycan K(b)P-nın Mərkəzi Komitəsinin birinci katibi M.C.Bağırova ərizə ilə müraciət edir.Yusif Vəzir M.C.Bağırova yazdığı ərizənin cavabının gəlməsindən əlini üzərək 1937-ci il iyun ayının 8-də Ümumittifaq K(b)P-nın baş katibi İ.V.Stalinə ərizə ilə müraciət edir. Bu ərizədən də cavab gəlmir. Yusif Vəzir 20–25 gün Moskvada qalıb Stalinə yazdığı ərizə barədə Mərkəzi Komitəyə müraciət edir. Lakin ordan da heç bir cavab ala bilmir. Çarəsiz qalan Yusif Vəzir Bakıya qayıdır. 1938-ci ildə "Kommunist" qəzetində çıxan bir elanda bildirilirdi ki, Özbəkistan SSR-nin Urgənc şəhərindəki Xarəzm Vilayət Pedaqoji institutunda rus dilində dərs deməyə müəllim yeri tutmaq üçün müsabiqə elan olunur. Yusif Vəzir sənədlərini toplayıb Urgənc şəhərinə göndərir. Müsabiqədən keçib rektorluqdan dəvət alır. 1938-ci ilin avqust ayında Yusif Vəzir Urgəncə yola düşür. O, Urgənc Pedaqoji İnstitutunda baş müəllim və eyni zamanda institut kitabxanasına müdir təyin olunur.

1937–1938-ci illərdə repressiyaya məruz qalan Azərbaycanın bir qrup elm və mədəniyyət xadimlərindən Bəkir Çobanzadə,

Nurməmməd bəy Şahsuvarov, Hənəfi Zeynallı, Hacıbaba Nəzərli və başqalarının verdikləri ifadələr əsasında 1940-cı il yanvar ayının 25-də Yusif Vəzir Urgəncdə həbs edilib Bakıya gətirilir. O, altı aya yaxın Keşlə həbs düşərgəsində saxlanıldıqdan sonra 1940-cı ilin iyul ayının 3-də Nijni Novqorod vilayətinin Suxobezvodnaya stansiyasındakı həbs düşərgəsinə göndərirlər. Yusif Vəzir Çəmənzəminli 1943-cü il yanvar ayının 3-də Nijni Novqorod vilayətinin Suxobezvodnaya stansiyasındakı həbs düşərgəsində aclıqdan və heç şübhəsiz, ürək tutmasından vəfat edir. Səhəri gün – 1943-cü il yanvarın 4-də Yusif Vəzir Çəmənzəminli Betluqa çayının sahilindəki qəbiristanlıqda dəfn olunur. 1956-cı ildə Yusif Vəzirə bəraət verildi.
Sərdarov küçəsi 20 — Yusif Vəzir Çəmənzəminlinin son yaşayış yeridir.

Yusif Vəzir Çəmənzəminlinin həyat fəailiyyətini və eləcə də gördüyü işləri oxuculara çatdırmaq məqdədi ilə görülən tədbirlərdən biri də *"Çəmənzəminli əsərlərinin rəngli çalarları"* adlı **"rəsm müsabiqəsi"** dir. Müsabiqədən əvvəl kitabxanaçı məktəblərdə olur və şagirdlərə Yusif Vəzir Çəmənzəminli fəaliyyətindən, onun qələmindən süzülən tənqid və təbliğlər haqqından danışır. Məktəblilər həmin hadisələri gözlərinin önündə canlandırır və onu fırça ilə əks etdirirlər. Rəsmlər içərisində maariflənmə, təhsil və məktəblilərlə bağlı mövzulara daha çox müraciət olunur. Qaliblər və digər iştirakçılar mükafatlandırılır.

Yusif Vəzir Çəmənzəminli yaradıcılığı ilə yaxından bələd olan məktəblilər "Yusif *Vəzir Çəmənzəminli qələmi"* adlı **"divar qəzeti"** tərtib edirlər. Qəzet məktəbin girişindən asılır. Qəzeti tərtib edən məktəblilər müdriyyət və müəllim kollektivi tərəfindən təqdirəlayiq qarşılanır. "Yusif Vəzir

Çəmənzəminli nədən və necə yazıb?" kiçik başlıqların da yer aldığı divar qəzeti məktəblilərin geniş marağına səbəb olur. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri Yusif Vəzir Çəmənzəminlinin yubileyi ilə əlaqədar olaraq *"Xalqa həsr edilmiş həyat"* adlı ***ədəbi-bədii gecə*** keçirilə bilər. Yusif Vəzir Çəmənzəminlinin xatirəsinə həsr olunmuş gecəyə Azərbaycanın görkəmli ediblərini, sənət-söz adamlarını dəvət etmək olar. Tədbir iştirakçıları kitab sərgisi ilə tanış olduqdan sonra zalda əyləşirlər. Ədibin həyat və yaradıcılığından bəhs edən slaytdan sonra, tədbiri açıq elan etmək üçün aparıcılar səhnəyə daxil olurlar.

**I aparıcı:** Salam, dəyərli qonaqlar, bu il Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, ədəbiyyatşünas, alim, pedaqoq, ictimai-siyasi xadim, folklor tədqiqatçısı, milli demokratik hərəkatın mücahidi, Azərbaycan ədəbiyyatında görkəmli ədəbi siması sayılan Yusif Vəzir Çəmənzəminlinin anadan olmasının 135–illiyi tamam olur. Bu münasibətilə buraya yığışmışıq.O, istedadlı qələm sahibi, ziyalı şəxsiyyət maarif xadimi, yazıçı, müəllim, naşir idi. Çox qısa zamanda həmin fəaliyyət sahələrinin hər birində uğur qazanmışdı. Bu adların hər birini ədibimiz öz gərgin zəhməti, dərin zəkası bahasına qazanmışdı. Yusif Vəzir Çəmənzəminli hərtərəfli istedada malik yazıçı olmuşdur.

Y.V.Çəmənzəminli (1887-1943) realist Azərbaycan nəsrinin,ümumiyyətlə, XX əsr ədəbi-bədii fikrimizin yeni səviyyəyə qalxmasında və yeni bir mərhələyə daxil olmasında böyük xidmətləri olan sənətkarlarımızdandır. O, tarixi roman və hekayə ustası, dramaturq, publisist, ədəbiyyatşünas, folklorşünas, tarixçi-etnoqraf və tərcüməçi kimi çoxcəhətli yaradıcılıq yolu keçmişdir.

**II aparıcı:** Azərbaycanın görkəmli dövlət xadimi, yazıçı, publisist, son dərəcə mürəkkəb və ziddiyyətli həyat yolu

keçmiş Yusif Vəzir Çəmənzəminli taleyin hökmü ilə ölkədən-ölkəyə, şəhərdən-şəhərə atılıb, yüksəlişin bütün sevincini, enişin əzab və məşəqqətlərini yaşamaqla ömür yolunu faciələr içində başa vurub. Bununla yanaşı, onun öz xalqına ərməğan etdiyi əsərlər və Azərbaycanın müstəqilliyi, o cümlədən Şərqin ilk demokratik dövlətinin qurulması uğrunda apardığı mübarizə Y.V.Çəmənzəminlinin adını millətinin qəlbinə əbədi yazıb. “Məqsədimiz, amalımız Azərbaycandır”, - deyə mücadiləyə qoşulan, Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) ilk diplomatlarından olan Y.V.Çəmənzəminli xüsusən İstanbuldakı elçiliyin rəhbəri kimi tarixə düşüb.

**I aparıcı:** Bu fikirlər Bakı Slavyan Universitetinin elmi işlər üzrə prorektoru, professor Rafiq Novruzovun Y.V.Çəmənzəminlinin AXC dövründəki diplomatik fəaliyyəti barədə yazısında yer alıb.

Müəllif qeyd edir ki, ümumiyyətlə, soykökü diplomatik fəaliyyətlə bağlı olan Y.V.Çəmənzəminliyə miras qalan "Vəzirov" soyadı ulu babası - XVIII əsr Qarabağ hökmdarı İbrahimxəlil xanın nüfuzlu vəzirlərindən olan Mirzə Əliməmmədağanın tutduğu vəzir vəzifəsi ilə əlaqədardır. Mirzə Əliməmmədağa “Vəzirov” soyadını daşıyanların və Yusif Vəzirin atası Məşədi Mirbaba nəslinin ulu babasıdır. Y.V.Çəmənzəminli bir yazısında bunu “Əliməmmədağa nəslimizin cəddidir”, - deyə təsdiqləyib. İbrahim xan Mirzə Əliməmmədağanın xarici siyasətdən yaxşı baş açdığını görüb onu Osmanlı imperiyasına səfir təyin edib. Lakin 1797-ci ilin iyununda İran hökmdarı Ağaməmməd şah Qacarın Şuşanı zəbt etməsi bu niyyətin baş tutmasına mane olub. Həmin vaxt Mirzə Əliməmmədağa həbs edilərək qətlə yetirilib və Türkiyədə səfir kimi fəaliyyət göstərmək ona qismət olmayıb. Y.V.Çəmənzəminli “Azərbaycan ədəbiyyatına bir

nəzər" əsərində bu barədə yazır: "...İran şahı Qarabağın paytaxtı Şuşanı zəbt etdikdə Vaqifi, oğlu Əliağanı və Türkiyəyə səfir təyin olunan Mirzə Əliməmmədağanı dustaq edir. Həbsdəkilərin növbə ilə öldürülməsinə əmr verir. Mirzə Əliməmmədağa qətl olunur, ancaq növbə Vaqif ilə oğluna gəlməzdən əvvəl Ağaməhəmməd şah öldürülür".

**II aparıcı:** Amma taleyin hökmü ilə uzun illərdən sonra Türkiyədə səfir kimi fəaliyyət göstərmək Mirzə Əliməmmədağa nəslinin nümayəndəsi Y.V.Çəmənzəminliyə nəsib olur. Onun İstanbul elçiliyinə göndərilməsi təsadüfi olmayıb. Əvvəllər Y.V.Çəmənzəminli Ukraynada bu sahədə fəaliyyət göstərib müəyyən təcrübə əldə etmişdi. Onun diplomatik missiyasını daha düzgün qiymətləndirmək üçün Y.V.Çəmənzəminlinin Osmanlıya göndərilən dövrədək Rusiya və Ukraynadakı fəaliyyəti üzərində bir qədər dayanmaq lazım gəlir. Belə ki, 1917-ci il fevral inqilabı baş verən zaman Qalitsiyada olan Y.V.Çəmənzəminli Ukraynanada cərəyan edən hadisələri yaxından izləyə bilir. Bundan dərhal sonra Qalitsiyadan Kiyevə gələn Y.V.Çəmənzəminli burada azərbaycanlı tələbələri ətrafına toplayaraq Türk Ədəbi Mərkəziyyə Firqəsini (Müsavat) yaradır və ona başçılıq edir. Bu zaman Ukrayna milli hərəkat rəhbərləri "Xalqlar qurultayı" çağırmaq məqsədilə "Xalqlar şurası" siyasi təşkilatını yaradırlar. Şura ayda iki dəfə "Svobodnıy soyuz (Azad ittifaq)" adlı jurnal buraxır. Y.V.Çəmənzəminli də həmin jurnalda Azərbaycan haqqında məqalələr çap etdirirdi. 1918-ci ilin mayından 1919-cu ilin fevralınadək Krımda olan Y.V.Çəmənzəminli burada milli hərəkatın, o cümlədən türkçülüyün güclənməsinə kömək etməyə çalışırdı. O, 1919-cu ildə Azərbaycan hökuməti tərəfindən Ukraynaya səfir təyin edilir, lakin təsdiq haqqında sənədi ala bilmir. Bununla əlaqədar Y.V.Çəmənzəminli

1919-cu il fevralın 3-də AXC-nin Xarici İşlər Nazirliyinə məktub göndərir. Məktubda deyilir: “15 gün bundan əvvəl hökumətimizin diplomatik nümayəndəsi təyin edildiyimi bildim. Bu barədə xəbəri mənə Simferopola gələn Kiyevdəki Azərbaycan Koloniyasının elçisi çatdırdı. Təəssüf ki, bu barədə hökumətimiz tərəfindən göndərilən rəsmi sənədi indiyədək ala bilməmişəm". Həmin vaxt Ukrayna Milli Hərəkat qüvvələri Kiyev ətrafında bolşeviklərlə döyüşdüyündən, Y.V.Çəmənzəminli həmin şəhərə gedib işə başlaya bilməyib. Bolşeviklər Kiyevi tutduqdan sonra, yəni 1919-cu ilin yazında Y.V.Çəmənzəminli Bakıya qayıdıb.
**II aparıcı:** Bu vaxtadək ədəbi-publisistik və ictimai-siyasi fəaliyyəti ilə şöhrət qazanmış Y.V.Çəmənzəminli Türkiyəyə səfir təyin edilir. İstanbula yola düşmək ərəfəsində Azərbaycan parlamentində çıxış edən Y.V. Çəmənzəminlinin fəaliyyəti yüksək qiymətləndirilir. O, İstanbulda diplomatik işlə məşğul olmaqla yanaşı, ədəbi fəaliyyətini də davam etdirib, Azərbaycanı və ədəbiyyatımızı türk aləmində tanıtmaq üçün “Azərbaycan ədəbiyyatına bir nəzər”, “Tarixi-coğrafi və iqtisadi Azərbaycan” kitablarını çap etdirib. Hər iki kitab 1921-ci ildə İstanbulda işıq üzü görüb. Y.V.Çəmənzəminlinin yaradıcılığının tədqiqatçısı Tofiq Hüseynoğlu bu dövrdə türkologiyada “azəroloji” xəttin yaranmağa başladığını vurğulayır: “Y.V.Çəmənzəminli bu dövrdə geniş türkologiyada “azəroloji” bir sahə yaradılması barədə düşünürdü. O, bütün yaradıcılığı ilə ardıcıl azərbaycançılıq ideyasını izləyir və həyata keçirməyə çalışırdı”. Y.V.Çəmənzəminlinin səfir təyin olunması barədə geniş tədqiqat aparmış “Cümhuriyyətin Osmanlı səfirliyi” məqaləsinin müəllifi, tədqiqatçı Dilqəm Əhməd həmin hadisələri belə xarakterizə edir: “1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra

qarşıda iki vəzifə dayanırdı: Cümhuriyyətin əsl paytaxtı olan Bakını işğalçılardan azad etmək; gənc dövləti Qərb dünyasında tanıtmaq... Cümhuriyyətin tanıdılması, dövlətin müstəqil mövcud olması üçün digər şərtlərdən biri də qonşu dövlətlərdə səfirliklərin açılması idi. Bu ölkələrdən ən önəmlisi isə son günlərini yaşayan Osmanlı idi".

***I aparıcı:*** İstanbulun AXC üçün böyük əhəmiyyətə malik olduğunu başa düşən Y.V.Çəmənzəminli "Xarici siyasətimiz" sərlövhəli məqaləsində yazırdı:"... Aləm İstanbuldadır: siyasi işlərin ucu, əfkari-ümumiyyənin gözü... hamısı burada... İstanbulda yapılan gurultular Parisə çatıb təsirsiz ötüşmür". Y.V.Çəmənzəminliyə görə, həm də İstanbul Bakı mədənlərinin məhsulları üçün yeganə xarici bazarı idi. Çünki Rusiyadakı böhran neftin Şimala gedən qapısını bağlamışdı. İstanbula göndərilən neft isə orada nümayəndələr olmadığına görə heç bir xeyir verməmişdi. Həmin hadisəni Y.V.Çəmənzəminli bu cür dəyərlənidirib: "Azərbaycan tüccarları birinci dəfə İstanbula neft gətirdilər, zərər gördülər. Səbəb budur ki, məhəlli rumlar toplanıb sindikat yapdılar və Bakı neftinin qiymətini saldılar... Halbuki İstanbulda səfarətimiz, konsulumuz olsa, məhəlli Azərbaycan tüccarlarından təşkilat yapıb rum sindikatının qabağına çıxa bilərdi... Bizim üçün neftimizin İstanbul bazarında asanlıqla müştəri tapması birinci dövləti məsələdir". Y.V.Çəmənzəminli səfir təyin olmazdan əvvəl AXC ilə Osmanlı arasında bəzi təmaslar yaranmışdı. 1918-ci ilin iyununda Məhəmməd Əmin Rəsulzadənin başçılığı ilə Xəlil bəy Xasməmmədov və Aslan bəy Səfikürdski İstanbula səfər etmişdilər. Onlara Osmanlı dövləti ilə hərbi, iqtisadi, nəqliyyat və maliyyə sahələri üzrə müqavilələr bağlamaq üçün etimadnamə verilmişdi. İyunun 24-də İstanbula çatan Azərbaycan nümayəndələri Osmanlı hökumətinin başçısı

Tələt paşa və digər hökumət üzvləri ilə görüşlər keçirməyə, Cümhuriyyət haqqında türk ictimaiyyətinə məlumatlar çatdırmağa başlayırlar. İstiqlal bəyannaməsinin tam mətni İstanbulda olan bütün səfirlik və konsulluqlara təqdim edilir. 1918-ci il sentyabrın 16-da M.Ə.Rəsulzadə Osmanlı tərəfi ilə ticarət müqaviləsi imzalayır. Həmin müqavilə əsasında Azərbaycan hökuməti Osmanlıdan 500 min türk lirəsi alır. Azərbaycan hökuməti Osmanlı imperiyası ilə tam həcmdə diplomatik əlaqələr yaradılması üçün 1918-cı il avqustun 20-də Əlimərdan bəy Topçubaşovu fövqəladə səlahiyyətli nazir kimi İstanbula ezam edir. Oktyabrın 2-də Ə.Topçubaşov Tələt paşa ilə görüşür, türk əsgərlərinin Bakının azad edilməsində iştirakına görə ona hökumət adından təşəkkür edir.

***II aparıcı:*** Y.V.Çəmənzəminli ilə bağlı maraqlı bir sənəd də AXC-nin Vatikan ilə diplomatik əlaqələr qurmaq istiqamətində cəhdləri ilə bağlıdır. Bu sənədi Vatikan arxivindən tarix elmləri doktoru Fərid Ələkbərli aşkar edib. Həmin sənədə görə, Y.V.Çəmənzəminli Roma Papası XV Benediktə heykəlin ucaldılması layihəsinin təşəbbüskarı və iştirakçısı olub. Roma Papasının İstanbuldakı nümayəndəsi bununla əlaqədar Vatikana aşağıdakı məlumatı göndərib: "Konstantinopolda Papa XV Benediktə abidənin ucaldılması layihəsi üçün müsəlman Azərbaycan Respublikasının nümayəndəsi Yusif bəy Vəzirovun təklif etdiyi məbləğ haqqında məlumat". F.Ələkbərli bu məsələ ilə bağlı tarixi belə izah edir: "Yusif Vəzir Vatikana məktub yazdı ki, təxminən bir il əvvəl rəhmətə getmiş XV Benedikt adlı papanın heykəlinin İstanbulda qoyulmasını istəyirlər. Azərbaycan hökuməti bunun tərəfdarıdır. Çünki XV Benedikt sülhpərvər olub, Qərb ölkələrini həmişə sülhə çağırıb. Çalışıb ki, Osmanlı dövləti ilə Qərb arasında ixtilaf

olmasın. Həmişə sülh, əmin-amanlıq olsun və xristianlıqla İslam arasında ədavət olmasın. Yəni bu şəxs sivilizasiyaları bir-biri ilə barışdırmaq yolunu tutub. Beləliklə, Yusif Vəzirovun belə xoşməramlı təklifi olub. Əlbəttə, Yusif Vəzirov bu təklifi təkcə öz adından etməmişdi, Azərbaycan Xalq Cümhuriyyəti ilə razılaşdırmışdı".

***I aparıcı:*** Cümhuriyyətin işğalından sonra Yusif Vəzir səkkiz ay fəaliyyətini davam etdirir. Səfirlik məsələsi bitdikdən sonra o, İstanbuldakı fəaliyyətini əks etdirən arxivini mühafizəsi üçün İstanbuldakı Süleymaniyyə nəzdindəki kitabxanaya təhvil verir. Bir müddət İstanbulda qalan Y.V.Çəmənzəminli "Yusif bəy Vəzirov. Azərbaycan Cümhuriyyətinin sabiq İstanbul elçisi" imzası ilə 1921-ci ildə "Azərbaycan ədəbiyyatına bir nəzər" və "Tarixi, coğrafi və iqtisadi Azərbaycan" kitablarını yazır. O, "Tarixi, coğrafi və iqtisadi Azərbaycan" kitabını M.Ə.Rəsulzadəyə ithaf edir.

Sovet Azərbaycanına dönən sabiq səfir burada əvvəlcə yaxşı qarşılanıb, müxtəlif işlərdə çalışsa da, 1937-ci ilin repressiyasından xilas olmayaraq sürgünə göndərilir. 1938-ci il avqustun 9-da Y.V.Çəmənzəminlinin həbsi barədə order imzalanır. Lakin bu vaxt o, Bakıda deyildi, Xarəzm Vilayət Pedaqoji İnstitutunda müəllim işləmək üçün Ürkənc şəhərinə gəlmişdi. Ancaq Y.V.Çəmənzəminlinin izinə düşən NKVD 1940-cı il yanvarın 27-də onu Ürkənc şəhərində həbs edib Bakıya gətirir. Həmin ilin yayında Qorki vilayətinin Suxobezvodnoe kəndinə sürgün olunan ədib 1943-cü il yanvarın 3-də burada vəfat edib. Onun aclıqdan vəfat etdiyi bildirilir. Beləliklə, görkəmli ədib və diplomatın həyatı faciə ilə başa çatır.

***II aparıcı:*** Görkəmli Azərbaycan yazıçısı Y.V.Çəmənzəminlinin həm də həssas, incə qəlbli, qədirşünas bir adam olduğu çəmənzəminlişünaşlıqda faktlarla təsdiq

edilib nəzərə çatdırılmışdır. Bu dahi şəxsiyyətin həyatında baş verib onun taleyində müəyyən iz buraxan bir çox hadisə ədibin gündəliklərində, ayrı-ayrı qeyd, məqalə və bədii əsərində xatırlanmışdır. Bu dahi şəxsiyyətin həyatında baş verən maraqlı məlumatlardan biri də o, Bakı realnı məktəbində oxuyarkən baş vermişdir; maqddi sıxıntı ucbatından təhsilini yarımçıq qalacağı təhlükəsi yarandığı üçün Yusif Vəzir təzə tanış olduğu və müvvəqqəti, maarifpərvər fikirləri ilə onu özünə bağlayan Bəşir bəy Aşurbəyova maddi yardım üçün müraciət edir. Qeyd edək ki, Yusif Vəzirin belə bir addım atmasına Bəşir bəy Aşurbəyovun özü stimul yaratmışdı; çəmənzəminlişünas alim, professor Tofiq Hüseynoğlunun yazdığı kimi, Yusif Vəzir Çəmənzəminli "Bəşir bəy Aşurbəyovla yaxından tanış olur. Bəşir bəy Aşurbəyov biləndə ki, milyonçu Hacı İsrafil Aydəmirov Miryusifə (Yusif Vəzir Çəmənzəminliyə-A.B.) təqaüd verməkdən imtina etmişdir, ona ayda 25 manat təqaüd verməyə hazır olduğunu bildirir. Lakin bu vaxt Miryusif dərs verib aldığı 20 manatla özünü dolandırırdı. Ona görə də vicdanına sığışdırmır ki, kömək üçün kiməsə əl açsın. Lakin indi imtahanın təxirə salınması nəticəsində elə vəziyyət yaranmışdı ki, təqaüd üçün müraciət etmək lazım idi. Mir Yusifin müraciətinə cavab olaraq Bəşir bəy Aşurbəyov ona ayda 25 manat təqaüd təyin edir" (T.Hüseynoğlu. "Ədəbiyyatla yaşayıram..." Bakı 1993 səh. 76).

Yusif Vəzir Çəmənzəminli öz gündəliyinin 8 may 1908 - ci il tarixli qeydlərində Bəşir bəyin bu xeyirxahlığını "Ümid işığı" başlığı altında minnətdarlıqla qələmə almışdır. Gənc Çəmənzəminlişünaş alim, filologiya elmləri namizədi Leyla Məcidqızı Yusif Vəzir Çəmənzəminli "Gündəliklər", "Özüm üçün dəqiqələr", "Fokusnikdən" ("Şərq nağılı"), "Altınsac" (Bakı Azərnəşr 2001) kitabına daxiı etmişdir.

***I aparıcı:*** azərbaycanlı ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri, Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının Rəyasət Heyətinin sədri Məmməd Əmin Rəsulzadə onun haqqında "Şərəfsiz bir aqibət" adlı yazı yazmışdır

Həmişə ziyalı ömür yaşayan bir insanı ağır fiziki əmək, aclıq, düşərgədəki həyat tərzi xəstəliyə salır. O, pellaqra xəstəliyinə tutulur. Beləliklə də, bu xəstəlik səbəbindən yəni, acından şişmə nəticəsində vəfat edir.

Ailəsi onun ölümündən xəbər tuta bilmir. Çünki Çəmənzəminlidən heç bir məktub gəlməmişdi və ona göndərilən bağlamaların da çatıb- çatmadığını bilmirdilər... Amma o, səkkiz il həbs cəzasının üçüncü ilində vəfat etdi.

Yusif Vəzir Çəmənzəminli 1943-cü il yanvar ayının 3-də Nijni Novqorod vilayətinin Suxobezvodnaya stansıyasındakı həbs düşərgəsində vəfat edib. Betluqa çayının sahilindəki qəbiristanlıqda dəfn olunan Yusif Vəzirə 1956-cı ildə bəraət verilib.

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin fond əsasında hazırladığı ədəbiyyat siyahısı**
**Dövrü mətbuatda çıxan əsərləri**

Əbdürrəhim bəy Haqverdiyev - 150 // 525-ci qəzet. - 2020. - 2 sentyabr. - **№ 101**. - S. 12

Son bahar : hekayə // Savalan. - 2015. - 13-15 yanvar. - **№ 2**. - S. 3.

**Dövrü mətbuatda haqqında yazılanlar**

**Ağayeva X**. Fədakar folklorşünaslara həsr olunan əsər // Kaspi. - 2018. - 1 dekabr. - **№ 206**. - S. 13.

**Aliyə.** Dustaq qəbiristanlığının qərib sakini : Yusif Vəzir - 122 // Mədəniyyət. - 2009. - 7 oktyabr. - N 72. - S. 12.

**Ataş N**. "Əli və Nino" ətrafında yaranan mübahisələrə son qoyulmalıdır // Yeni Azərbaycan. - 2007. - 11 avqust. - S.8.

**Aydınoğlu T**. " Qurban Səid, sən kimsən? " // Xalq qəzeti. - 2007. - 9 sentyabr. - S. 5.

**Donoçova T**. Y.V.Çəmənzəminlinin hekayələrində xalq mənəviyyatının təcəssümü // Azad Azərbaycan. - 2007. - 7 avqust. - S.7.

**Əhmədli B**. Əsəd bəy - Çəmənzəminli - Qurban Səid diskursu: həqiqətin gerçək üzü // Ədəbiyyat qəzeti. - 2021. - 3 aprel. - **№ 13**. - S. 30-31.

**Əliyeva İ**. Həyatı odlar içində keçib : Repressiya // Azərbaycan. - 2012. - 12 sentyabr. - **№ 203**. - S. 10. ; **11 sentyabr. - № 202. - S.11.**

**Əliyeva İ**. Sınaqlarla dolu ömür // Azərbaycan : qəzet. - 2022. - 30 yanvar. - **№ 21**. - S. 5.

**Elsevər S**. Kiçik hekayələrdə böyük sənətkarlıq üslubu : Yusif Vəzir Çəmənzəminlinin yaradıcılığı əsasında // Kaspi. - 2020. - 10 iyun. - **№ 87**. - S. 15.

**Fərəcova Z.** "Bəraət almış yazıçı" : Yusif Vəzir Çəmənzəminli haqqında // El. - 2006. - № 6. - S.82-94.

**Gəncəli M**. Yusif Vəzir Çəmənzəminli Əhməd bəy Ağaoğluna niyə müraciət etmişdi // Ədəbiyyat qəzeti. - 2016. - 19 noyabr. - **№ 43**. - S. 21.

**Hümmətli Ş**. Yeni yazarlar nəyi bilməlidir : Yusif Vəzir Çəmənzəminlinin fəaliyyəti haqqında // Azərbaycan. - 2013. - **№ 3**. - S. 178-183.

**Hüseynbəyli E**. Yenə iki od arasında : yazıçı, tədqiqatçı və fikir adamı Yusif Vəzir Çəmənzəminlinin xatirəsinə ehtiramla : Səkkizinci Qarabağnamə : nəsr // Azərbaycan : jurnal. - 2016. - **№ 9**. - S. 30-83. ; **№ 10. - S.75-144.**

**Hüseynoğlu T**. Əsərin adına baxan kimi bilinirdi ki, odun biri İrandırsa, digəri Rusiyadır : Professor Tofiq Hüseynoğlu araşdırmaçısı olduğu Yusif Vəzir Çəmənzəminlinin həyat və yaradıcılığı haqqında müsahibəsi / söhbətləşdi C. Seyidzadə // Kaspi. - 2017. - 1 aprel. - **№ 55**. - S. 12-13.

**İlyasov V**. Azərbaycan Xalq Cümhuriyyətinin liderləri : Yusif Vəzir Çəmənzəminli // İki sahil. - 2018. - 11 aprel. - **№ 69**. - S. 10.

**Kamal R**. Əlahəzrət gündəlik // Ədəbiyyat qəzeti. - 2019. - 23 noyabr. - **№ 41/42**. - S. 19.

**Kamal R**. Gülümsəyən Yusif Vəzir : Azərbaycan dövlət xadimi və yazıçısı, Yusif Vəzir Çəmənzəminli haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 25 aprel. - **№ 24/25**. - S. 25.

**Kamal R**. Yusif Vəzirin vida dəftəri // Ədəbiyyat qəzeti. - 2016. - 29 oktyabr. - **№ 40**. - S. 7.

**Kəsəmənli R**. Y.V.Çəmənzəminli publisistikasında qadına münasibət // İşıq. - 2017. - **№ 4**. - S. 40-43.

**Məhərrəmova T**. "Əli və Nino" ekrana vəsiqə alacaq // Kaspi. - 2012. - 12 yanvar. - **№ 226**. - S. 12.

**Musayeva İ**. Repressiyaya aparan yollar : Y.V.Çəmənzəminlinin "Qızlar bulağı" romanı haqqında // Azərbaycan : jurnal. - 2019. - **№ 6**. - S. 181-187.

**Musayeva İ**. Yusif Vəzir Çəmənzəminlinin romanları və repressiya : I məqalə // Azərbaycan : jurnal. - 2019. - **№ 3**. - S. 162-173.

**Mustafa F**. Yusifi Vəziri necə qurtarmalı? // Azərbaycan : jurnal. - 2019. - **№ 2**. - S. 97-110.

**Nağısoylu M**. Yusif Vəzir Çəmənzəminlinin ədəbi-tənqidi görüşləri haqqında dəyərli araşdırma : Şəlalə Hümmətlinin "Yusif Vəzir Çəmənzəminlinin ədəbi-tənqidi görüşləri" adlı

kitabına rəy // Ədəbiyyat qəzeti. - 2015. - 6 iyun. - **№ 36/37**. - S. 23.

**Ömərov V**. Yusif Vəzir Çəmənzəminli Azərbaycan dövlətçiliyi və etnonimi haqqında : Azərbaycan dövlətçilik tarixi, mədəniyyəti, mənəviyyatı, adət-ənənələri haqqında Yusif Vəzir Çəmənzəminlinin əsərlərinin əksəriyyətindən bəhs edilmişdir. // Səs. - 2017. - 28 iyul. - **№ 133**. - S. 15.

Qarabağın Məşhur müəllimləri : Yusif Vəzir **Çəmənzəminli ;** Nəcəf bəy Vəzirov ; Bülbül haqqında // Azərbaycan Müəllimi. - 2020. - 20 noyabr. - **№ 39**. - S. 10.

**Qocayeva Ə**. Yeni nəşrlər : "Yusif vəzir Çəmənzəminli" biblioqrafiyası // Səs. - 2018. - 13 yanvar. - **№ 7**. - S. 11.

**Rəsulova Ə**. Yusif Vəzir Çəmənzəminli yaradıcılığına bir baxış // Respublika. - 2017. - 23 iyul. - **№ 156**. - S. 6.

**Sərvaz.** Hər gecənin gündüzü vardır // Ədəbiyyat qəzeti. - 2007. - 9 iyul. - S. 3.

**Vəliyev İ**. Şumerdəki izimiz : Şumer panteonunun öyrənilməsi // Respublika. - 2012. - 28 iyul. - **№ 166**. - S. 5.

**Xəlilov B**. Y.V.Çəmənzəminli - daim gündəmdə olan yazıçı // Yeni Azərbaycan. - 2007. - 22 sentyabr. - S.7.

**Xəlilzadə F**. Azərbaycan nəsrinin parlaq nümayəndəsi : Yusif Vəzir Çəmənzəminli - 120 // Azərbaycan. - 2007. - 12 sentyabr. - S.4.

Ədəbiyyatımızda Yusif *Vəzir Çəmənzəminli qələmi*

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Aynurə Əliyeva**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**